*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

1 noyabr 2019-cu il | № 81-84 (9363) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymətı 50 qəpik

## H.X.Əsədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsilin inkişafında xidmətlərinə görə Heydər Xanış oğlu Əsədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il.*

## BU SAYIMIZDA

### "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağında mühüm məsələlər müzakirə olunub



***Gürcüstanın paytaxtı Tbilisi şəhərində "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağı keçirilib.***

Səh. 2

### Hər iki tərəf üçün faydalı görüş



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) İnsan resurslarının idarəedilməsi departamentinin təşəbbüsü ilə "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda gənc usta və usta köməkçiləri ilə görüş keçirilib.***

Səh. 3

### "Neptun" üzən tərsanəsində hər işin öz ustası var




***Gəmilərin uğurlu səfərlərində onların sazlığını təmin edən gəmi təmirçilərinin də zəhmət payı var. ASCO-nun donanmalarına aid gəmilər də təmirə dayanarkən məhz onların əllərinin qabarı ilə istismara yararlı vəziyyətə gətirilir.***

Səh. 4

### "Dəniz ətraf mühitinin qlobal problemləri"



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Dəniz Akademiyasında ingilis dilli qruplarda təhsil alan tələbələr üçün "Dəniz ətraf mühitinin qlobal problemləri" mövzusunda seminar keçirilib.***

Seminarı kapitan Titos Giannakakis aparıb və dəniz ətraf mühitinə həssaslığın vacibliyindən danışıb.

Səh. 5

### Poçt markaları – İnformasiya daşıyıcıları



***İnternet həyatımıza daxil olduqdan sonra filatelistlərin sıx cərgələri sürətlə seyrəlməyə başladı.***

Səh. 6

### Mini-futbol turnirində ilk yerlər uğrunda gərgin mübarizə gedib



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (ASCO) və ASCO-nun tərkibinə daxil olan strukturların aparat işçiləri arasında keçirilən mini-futbol turnirinə yekun vurulub.***

Səh. 8

# Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır

***...Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür.***




Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.

2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündəki nitqindən)*

# ASCO-nun Məsləhətləşmələr Şurasının iclası keçirilib














***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) Məsləhətləşmələr Şurasının növbəti iclası keçirilib. İclasda ASCO rəhbərliyi, veteran və bu gün fəaliyyət göstərən dənizçilər, "Konstitusiya" Araşdırmalar Fondu, "İqtisadi və Sosial İnkişaf Mərkəzi", "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası", "Güzəran Sosial Araşdırmalar İctimai Birliyi" kimi QHT-lərin rəhbərləri, o cümlədən "İki sahil" qəzetinin baş redaktoru iştirak ediblər.***





Əvvəlcə ASCO-nun fəaliyyətindən bəhs edən videoçarx nümayiş edilib. Sonra ASCO-nun sədri Rauf Vəliyev son altı ildə qurumun fəaliyyəti haqqında geniş təqdimatla çıxış edib. Bildirib ki, ASCO Donanmasında olan 260-dan çox gəmi ilə həm yükdaşımalarla, həm də ofşor xidmətlərinin göstərilməsi ilə məşğul olur. 160 illik tarixi olan şirkət 2014-cü ildən etibarən Xəzərdən kənarda, xarici sularda fəaliyyətini bərpa edib. Belə ki, indi ASCO-ya məxsus 14 gəmi beynəlxalq sularda müstəqil Azərbaycanın bayrağı altında üzür.

Son 6 ildə 20 yeni gəminin istismara verildiyini deyən ASCO-nun sədri bu istiqamətdə işlərin davam etdiyini bildirib. Qeyd edib ki, Bakı Gəmiqayırma Zavodunda 6 gəmi tikilir. Onlardan 2-si unikal Ro-Pax/bərə, 4-ü yeni nəsil tankerdir. Ümumiyyətlə isə yaxın 10 ildə Donanmanın tərkibinə 70-dək müxtəlif tipli gəminin daxil edilməsi planlaşdırılır.

Donanmaların mütəmadi yenilənməsi ilə yanaşı, ötən müddətdə güclü yerli kadrların hazırlanması, şəffaflığın təmin olunması, beynəlxalq standartların tələblərinə uyğun fəaliyyətin təşkili də diqqətdən kənarda qalmayıb.

Sədr korporativ idarəetmə sahəsində görülən işlərdən də danışıb. Bildirib ki, bu müddətdə kadr hazırlığı və gənclər siyasətinə də xüsusi diqqət yetirilib. Xəzərdənkənar sularda gənc əməkdaşlara üzmə təcrübəsi fürsəti yaradılıb, əlaçı tələbələr ASCO-da işlə təmin edilib, Azərbaycan Dövlət Dəniz Akademiyasında xarici dillərdə təhsilə başlanılıb, ilin ən yaxşılarına mükafat təyin olunub, perspektivli gənc kadrların karyera inkişafının izlənilməsi sistemi kimi müxtəlif yeniliklər tətbiq edilib.

Son 6 ildə ASCO-da infrastruktur tikinti işləri də davamlı həyata keçirilib. Struktura daxil olan qurumlarda təmir işləri aparılıb, infrastruktur yenilənib. Hazırda şirkət tərəfindən yaşayış kompleksi və şəhərimizin memarlıq üslubuna uyğun inzibati binanın tikintisi davam edir.

Korporativ sosial məsuliyyət sahəsində görülən işlərdən danışan ASCO-nun sədri Rauf Vəliyev məlumat verib ki, şirkət bu istiqamətdə mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Davamlı təşkil olunan idman yarışları, tibbi sığortanın tətbiqi, məcburi köçkün və qaçqın ailələrinə ərzaq yardımının verilməsi, qanvermə aksiyaları, 20 Yanvar şəhidlərinin ailələrinə və bu faciə zamanı əlil olmuş əməkdaşlara maddi yardımın ayrılması da bu çərçivədə görülən işlərə daxildir.

Sədr Gəmiçiliyin ötən il 160 illik yubiley ili çərçivəsində həyata keçirilən tədbirlər haqqında da ətraflı məlumat verib.

Rauf Vəliyev ASCO-nun "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu"ndakı roluna da toxunub. Bildirib ki, "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Asiya ilə Avropa arasında ən cəlbedici nəqliyyat dəhlizlərindəndir. Bu marşrut qısa, sürətli və təhlükəsizdir. ASCO isə bu marşrutun əsas və mühüm iştirakçılarından biridir.

Çıxışda ASCO-nun gələcək planları barədə də danışılıb.

Daha sonra ASCO-nun sədri tədbirdə iştirak edən veteran dənizçilər, kapitan və digər gəmi heyəti üzvlərinin, o cümlədən QHT və KİV rəhbərlərinin şirkətin fəaliyyəti ilə bağlı suallarını cavablandırıb.

Xatırladaq ki, 2016-cı ildə yaradılan Məsləhətləşmələr Şurasının əsas məqsədi şirkət ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağında mühüm məsələlər müzakirə olunub

***Gürcüstanın paytaxtı Tbilisi şəhərində "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağı keçirilib.***

Gürcüstan, Azərbaycan, Qazaxıstan, Ukrayna, Polşa, Türkiyədən olan dənizçilik, dəmir yolu idarələri, liman və logistika şirkətlərinin 60-dan çox təmsilçisinin qatıldığı toplantıda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-ni (ASCO) qurumun sədri Rauf Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

İclasda "Orta dəhliz"ə yeni növ yüklərin cəlb olunması, 2020-ci il üçün vahid şəffaf tarif siyasəti məsələləri, o cümlədən cari ilin 9 ayında "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" üzərindən yükdaşıma həcmləri haqqında geniş müzakirələr aparılıb.

Görüş çərçivəsində Ukraynanın "TIS Konteyner Terminalı" və "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin Beynəlxalq Assosiasiyaya üzv qəbul olunması barədə qərar verilib.










Görüşdə ASCO-nun gəmiləri vasitəsilə Aktau-Bakı-Aktau xətti üzrə konteyner daşımalarının aktivləşdirilməsinə dair də fikir mübadiləsi aparılıb. Həmçinin, "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağı çərçivəsində Qara dənizdə Gürcüstanın Batumi və Rumıniyanın Konstansa limanları arasında müntəzəm fider konteyner xətti üzrə daşımalar həyata keçirəcək 3 şirkət arasında əməkdaşlıq sazişi imzalanıb. Sazişə ASCO-nun törəmə müəssisəsi "ACSC Logistcs" MMC, Gürcüstanın "GR Logistics & Terminals", Rumıniyanın "GRAMPET GROUP" şirkətləri imza atıblar.

Bu xətt üzrə əsas yük kimi Avropa-Çin-Avropa və Avropa-Mərkəzi Asiya-Avropa istiqamətlərindən tranzit yüklərin daşınması nəzərdə tutulub. Gözləntilərə görə, adıçəkilən istiqamətlər üzrə Qara dənizdə konteyner xətti ilə yüklərin çatdırılması müddəti azalacaq. Bu da Qara dəniz üzərindən də keçən "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu"nun cəlbediciliyini və Azərbaycan üzərindən keçən tranzit konteyner daşımalarının həcmini artıracaq.

Gürcüstana səfəri çərçivəsində ASCO-nun nümayəndə heyəti "Üçüncü Tbilisi İpək Yolu Beynəlxalq Forum"unda da iştirak ediblər. Forumda böyük İpək Yolunun inkişafı, regional təhlükəsizlik, iqtisadi, enerji, infrastruktur layihələri, logistika və regional əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb.

# "Üçüncü Tbilisi İpək Yolu Beynəlxalq Forum"unda 60 ölkədən 1000-dən çox nümayəndə iştirak edib

***Oktyabrın 22-23-də Gürcüstanın paytaxtında "Üçüncü Tbilisi İpək Yolu Beynəlxalq Forum"u keçirilib. İki gün davam edən konfransda 60 ölkədən 1000-dən çox nümayəndə iştirak edib.***




Tədbirdə Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, ölkəmizin Gürcüstandakı səfiri Dursun Həsənov və digər rəsmi şəxslər təmsil ediblər.

Tədbiri Gürcüstanın Baş Naziri Giorgi Qaxariya açaraq ölkəsinin iqtisadi inkişafı, beynəlxalq layihələrdə iştirakı, investisiya imkanları barədə danışıb. O, Gürcüstanın tarixi İpək Yoluna böyük önəm verdiyini bildirib.

Sonra Nyu-York Universiteti nəzdində fəaliyyət göstərən Stern Biznes Məktəbinin iqtisadiyyat üzrə professoru Nuriel Rubin əsas məruzə ilə çıxış edib.

Konfransda böyük İpək Yolunun inkişafı, regional təhlükəsizlik, iqtisadi, enerji, infrastruktur layihələri, logistika və regional əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb. Tədbirdə, həmçinin həyata keçirilən iri regional neft-qaz layihələri, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu diqqət mərkəzində olub.

Çıxışlardan sonra forum işini panel iclaslarla davam etdirib. Azərbaycan nümayəndə heyətinin üzvləri panel iclaslarda çıxış edərək, ölkəmizin iqtisadi potensialı, inkişaf perspektivləri və tarixi İpək Yoluna verdiyi önəm barədə məlumat veriblər.

***Xətayi Əzizov***

# Azərbaycan Transavropa nəqliyyat şəbəkələrinin inkişafına öz töhfəsini verib

***Azərbaycan Transavropa nəqliyyat şəbəkələrinin (TEN-T) inkişafına öz töhfəsini verib.***

Bu sözləri Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə Tbilisidə keçirilən İpək Yolu Forumu (Silk Road Forum 2019) çərçivəsində Avropa İnvestisiya Bankı tərəfindən təşkil edilmiş "Avropaya qoşulma – genişləndirilmiş TEN-T-lərin işlənib hazırlanması" adlı plenar sessiyada deyib.

Nazir müavini çıxışında Azərbaycanın nəqliyyat infrastrukturundan, həm ölkəmiz tərəfindən, həm də başqa dövlətlərlə əməkdaşlıq şəraitində irəli sürülmüş və həyata keçirilmiş çoxsaylı layihələrdən, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan, Bakı Beynəlxalq Dəniz Ticarət Limanından, "Şimal-Cənub" layihəsindən və s.-dən danışıb.

Bu istiqamətdə Gürcüstanla əməkdaşlığa toxunan E.Vəlizadə deyib ki, iki ölkə arasında tənzimlənmiş yükdaşımaları sistemi fəaliyyət göstərir.

Forum iştirakçıları tədbirin birinci günü ayrıca qruplararası müzakirələr çərçivəsində ticarət, süni intellekt, nəqliyyat və energetika ilə bağlı məsələlərin tam spektrini müzakirə ediblər. Forumun ikinci günü Gürcüstanın özəl sektoruna və investisiya imkanlarına həsr edilib.

# Regionda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələri Avropa ilə Asiya arasında körpü rolunu oynayır

***Bu gün bizim regionda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələri Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Bu, bizim inkişafımızın əsasını təşkil edir.***

Bu sözləri Gürcüstanın Baş Naziri Giorgi Qaxariya "Üçüncü Tbilisi İpək Yolu Beynəlxalq Forumu"ndakı çıxışı zamanı söyləyib.

Forumun əhəmiyyətini yüksək qiymətləndirən Baş Nazir deyib ki, böyük İpək Yolu layihəsinə qoşulmaqla biz bir sıra layihələrin həyata keçirilməsinə start vermişik: "Bu layihə, həmçinin "Bir kəmər, bir yol" layihəsinin reallaşması baxımından da əhəmiyyətlidir. Biz İpək Yolu çərçivəsində Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunu tikmişik, digər daxili yolları əsaslı təmir etmişik. Bu gün İpək Yolunun tərkib hissəsi olan avtomagistrallar da yenidən qurulur. Bu da bizim iqtisadiyyatımızı inkişaf etdirməklə yanaşı, beynəlxalq əhəmiyyətə malikdir".




Hökumət başçısı çıxışında irimiqyaslı enerji layihələrinin də rolunu xüsusi qeyd edib: "Bu gün Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, eləcə də TANAP və TAP kimi layihələr var. Bu magistral kəmərlər təkcə bizim regionun deyil, bütövlükdə Avrasiyanın enerji təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edir".

# İstər Şərq, istərsə də Qərb marşrutu ilə yüklərin daşınması üçün yaxşı şərait yaradılıb

***Bakı-Tbilisi-Qars dəmir yolu İpək yolunun inkişafında mühüm rol oynayır.***



Bu fikri Gürcüstan hökuməti, İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyi və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Tbilisidə keçirilən İpək Yolu Forumu (Silk Road Forum 2019) çərçivəsində təşkil olunmuş "Yüksək səviyyəli dialoq" adlı plenar sessiyadakı çıxışında Özbəkistan Baş Nazirinin müavini Elyer Qəniyev səsləndirib.

E.Qəniyevin sözlərinə görə, Özbəkistan regionun bütün ölkələri ilə nəqliyyat və logistika sahəsində əməkdaşlıqda maraqlıdır. O deyib: "Hazırda regionun bütün ölkələri – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə istər Şərq, istərsə də Qərb marşrutu ilə yüklərin daşınması üçün yaxşı şərait yaradıblar. Bakı-Tbilisi-Qars dəmir yolu, habelə Azərbaycanda Ələt, Gürcüstanda Poti və Anaklia, Qazaxıstanda Aktau, Türkmənistanda Türkmənbaşı dəniz limanları və nəqliyyat infrastrukturu üzrə digər layihələr bu regionda yeni imkanlar yaradıb və bu böyük potensialdan istifadə etmək lazımdır".

# Hazırda əsas vəzifə Aral böhranının ətraf mühitin mühafizəsinə və insanların həyat fəaliyyətinə neqativ təsirini azaltmaqdır

***Özbəkistan Hökumətinin və Birləşmiş Millətlər Təşkilatının (BMT) təşəbbüsü ilə Özbəkistanın Nukus şəhərində "Aralyanı-iqtisadi innovasiyalar və texnologiyalar zonası" adlı beynəlxalq konfrans keçirilib.***

Konfransda Avropa və Asiya dövlətlərinin, həmçinin beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.




BMT-nin Baş katibi Antoniu Quterrişin konfransa göndərdiyi videomüraciətdə deyilir: "Aralın quruması insanların sağlamlığına və həyat şəraitinə çox böyük zərbə vurub. Hazırda bizim əsas vəzifəmiz regionda Aral böhranının ətraf mühitin mühafizəsinə və insanların həyat fəaliyyətinə neqativ təsirini azaltmaqdır".

BMT-nin Özbəkistandakı daimi əlaqələndiricisi Xelena Freyzer bildirib ki, Aral böhranının ağır nəticələrinə baxmayaraq, dənizin yerində yaranmış Aralqum səhrasını cəlbedici iqtisadi zonaya çevirmək mümkündür.

Qaraqalpaqıstan parlamenti Joqorku keneşinin sədri Musa Erniyazov deyib ki, Aral fəlakəti iqtisadiyyata böyük zərər vurur, işsizlik artır, yerli sakinlərin həyat şəraiti pisləşir. O bildirib ki, son illər Özbəkistan Hökumətinin və beynəlxalq təşkilatların köməyi ilə Aralyanı zonada infrastruktur inkişaf etdirilir.

Özbəkistanın Su təsərrüfatı naziri Şavkat Xamrayev çıxışında diqqəti şirin su çatışmazlığı probleminə cəlb edib. O deyib ki, buzlaqların əriməsi, su həcminin azalması, əhalinin şirin su çatışmazlığından əziyyət çəkməsi göstərir ki, Mərkəzi Asiyada su təhlükəsizliyinin təmin olunması ilə bağlı qarşıda böyük vəzifələr durur.

Nukus konfransı çərçivəsində Aralın Xilası Beynəlxalq Fondu Dövlətlərarası Komissiyasının iclası da baş tutub. Komissiyaya sədrlik Türkmənistandan Özbəkistana keçib.

***Qulu Kəngərli***

# Bakı Limanı ilə Aktau və Kurik limanları bilet satışlarını vahid onlayn rejim üzərindən aparacaq

***Bakı Limanı ilə Aktau və Kurik limanları arasında bilet satışları vahid onlayn rejimi üzərində aparılacaq.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən bildirilib ki, Tbilisidə keçirilən "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (TBNM) Konsorsiumuna üzv şirkətlərin növbəti toplantısı çərçivəsində Bakı Limanı ilə Aktau Limanı, eyni zamanda, Bakı Limanı ilə Kurik Limanı arasında bilet satışlarının vahid onlayn rejimi üzərində aparılmasına dair anlaşma memorandumları imzalanıb.




# Xəzər dənizinin ekoloji mühitinə mənfi təsirlər birgə aradan qaldırılacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyində Xəzər dənizinin çirklənməsinin qarşısının alınması və bu problemin aradan qaldırılması məqsədilə maraqlı və məsul tərəflərin iştirakı ilə görüş keçirilib. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərsu" ASC, "Azersun Holding" MMC, SOCAR-ın Ekologiya İdarəsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Siyəzən Broyler", "Səba" ASC, Qafqaz Konserv zavodu, Bakı Qida və Yağ fabriki, "Azər Yod" MMC, "Yalama Xəzər" Turist bazası, "Lotos", "Malibu", "Meşəbəyi", "Xəzər Palace", "SunSet", "Ülfət" və s. idarə, müəssisə və iaşə obyektlərinin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Xəzər dənizinin ekoloji mühitinə mənfi təsirlərin azaldılmasına birgə nail olunması ətrafında müzakirələr aparılıb.***



Nazirliyin ətraf mühit üzrə mütəxəssisi Adil Zeynalovun bildirdiyinə görə, görüşdə Xəzər dənizinin çirklənməsinin qarşısının alınması mövzusunda qurumun əməkdaşları tərəfindən təqdimat olub, dənizə mənfi təsirlərin minimuma endirilməsi üçün tətbiq olunan müasir texnologiyalar nümayiş etdirilib.

Xəzərin çirklənməsinin qarşısının alınması üçün qarşılıqlı əməkdaşlığın qurulmasında, sahibkarların üzləşdikləri çətinliklərin təhlilində nazirliyin maraqlı olduğu diqqətə çatdırılıb. Xəzəri çirkləndirən obyekt, müəssisə və təşkilatların fəaliyyətlərini qanunvericilik prinsipləri əsasında qurması, texnoloji yeniliklərin tətbiqi istiqamətində maraqlı və məsul tərəflərlə sıx əməkdaşlıq edilməsi üçün təkliflər və tövsiyələr verilib, qarşılıqlı razılaşma əldə olunub.

A.Zeynalov Xəzərin çirkləndirilməsində rolu olan müəssisə və təşkilat rəhbərlərinə bir daha müraciət edərək bildirib ki, müasir texnologiyalar mövcud olduğu halda, bu avadanlıqları quraşdırmağa və onlardan istifadəyə önəm verilmir. Hazırda standartlara cavab verməyən köhnə texnoloji üsullardan istifadə edilir. Əgər qısa vaxt ərzində lazımi işlər görülməzsə çirkləndiricilər barəsində sərt və daha ciddi tədbirlər görüləcək, fəaliyyətlərinin məhdudlaşdırılması üçün məhkəmələrə müraciət olunacaq.

# "Türk axını" boru kəmərinin Qara dənizdən keçən qoşa xəttinin hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq

***Rusiya təbii qazının Türkiyə və Avropaya nəqlini nəzərdə tutan "Türk axını" boru kəmərinin ("TurkStream") birinci xəttinə qazın doldurulması noyabrın ortalarınadək davam edəcək.***




Bu barədə "Gazprom Transgaz Krasnodar" məlumat yayıb.

Bildirilir ki, oktyabrın 15-də layihənin əsas mərhələsinə, yəni boru kəmərinin ilk xəttinin təbii qazla doldurulmasına başlanılıb. İşlər son mərhələdədir. Boru kəmərinin istismara verilməsinə təxminən 2 ay qalır.

Hələlik təbii qaz boru kəmərinə alçaq təzyiqlə vurulur və bu proses mərhələli şəkildə artacaq. Boru kəmərinin dəniz hissəsinin isə qarşıdakı 1 ay ərzində doldurulması nəzərdə tutulur.

Qeyd edək ki, "TurkStream"lə ilk təbii qazın nəqli bu il dekabrın 31-də planlaşdırılır.

"Gazprom" bu il layihəyə 102 milyard rubl ayırıb. Boru kəmərinin Qara dənizdən keçən qoşa xəttinin uzunluğu 930 kilometrdir. Bu xəttin hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq. Rusiyanın Anapa şəhərindən başlayan xətt İstanbulun təxminən 100 kilometr qərbində yerləşən Kıyıköy bölgəsində quruya çıxır. Boru kəmərinin ilk xəttinin Türkiyənin təbii qaza olan hazırkı tələbatının təxminən 35 faizini ödəyəcək. İkinci xətt ilə Rusiya qazının Avropaya nəqli nəzərdə tutulur.



# Rezin qayıqlarla Türkiyəni tərk etmək istəyən 168 miqrant saxlanılıb

***Türkiyənin Çanaqqala şəhərində qanunsuz yollarla Yunanıstana keçmək istəyən 168 nəfər saxlanılıb.***

Ölkədəki qanunsuz miqrantların saxlanılması istiqamətində Türkiyənin Sahil Mühafizə Xidmətinin əməkdaşları tərəfindən Egey dənizinin şimalında dörd əməliyyat keçirilib. Rezin qayıqlarla ölkəni tərk etmək istəyən 168 miqrant əməliyyatlar zamanı saxlanılıb. Qayıqların birində şəxsiyyəti hələ müəyyənləşdirilməmiş 16 yaşlı Əfqanıstan vətəndaşının cəsədi tapılıb.

Faktla bağlı araşdırma aparılır.

# Xilas edilən qaçqınlar Mifimnas limanına çatdırılıb

***Türkiyədən Yunanıstan adalarına üz tutan miqrantların sayı get-gedə artır.***

"Frontex" təşkilatının verdiyi məlumata əsasən, oktyabrın 28-də 141 miqrant xilas edilib. Samos, Lesbos adalarına üz tutan qaçqınlar sahil mühafizə xidməti tərəfindən Mifimnas limanına çatdırılıblar.

Qeyd edək ki, miqrantlar müxtəlif üsullardan istifadə edərək Avropa İttifaqı ölkələrinə daxil olmaq istəyirlər.



Onların əksəriyyəti normadan artıq adamın minməsi ilə əlaqədar qayıqların aşması və s. çətinliklərlə üzləşir. Bu qəzalar nəticəsində ölüm halları tez-tez baş verir. Avropa İttifaqı bununla əlaqədar müvafiq tədbirlər görsə də, qaçqınların axınının qarşısını almaq olmur.

# ÇXR-in Sədri Si Cinpin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi "Qədim İpək Yolunun bərpası" strategiyası ilə yaxşı uyğunlaşır

***Çin Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verir və Azərbaycanı etibarlı dost və mühüm tərəfdaş hesab edir, Azərbaycan tərəfindən uzun illər ərzində əsası qoyulan siyasi qarşılıqlı etimadın səviyyəsini yüksək dəyərləndirir. Hazırda Çin-Azərbaycan münasibətləri öz inkişafı tarixində ən yaxşı dövrünü yaşayır. Azərbaycanda Çin səfiri qismində mən dərindən hiss edirəm ki, qarşımda mühüm və şərəfli missiya, eyni zamanda, böyük məsuliyyət durur. Mən iki ölkənin rəhbərləri tərəfindən əldə olunan mühüm razılaşmaları tam şəkildə icra etməkdən və iki ölkənin xalqının rifahı naminə Çin və Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsindən ötrü Azərbaycanın müxtəlif sosial dairələrindən olan təmsilçiləri ilə işləməyə hazıram.***

Bu barədə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfiri xanım Qo Min Çin səfirliyində Azərbaycanın aparıcı KİV-lərinin təmsilçiləri ilə keçirdiyi görüşdə bildirib.

Onun sözlərinə görə, indiyədək Çin Azərbaycan tərəfinə iqtisadiyyat və ticarət sahəsində 22 layihənin icra olunması üçün 500 milyon yuandan artıq təmənnasız yardım edib. Səfir deyib: "Bu ilin avqustunun sonuna Çin və Azərbaycan arasında əmtəə dövriyyəsi ötən ilin analoji dövrü ilə müqayisədə 104,64 faiz artaraq, 1,543 milyard ABŞ dollarına çatıb və tarixdə rekord səviyyəyə nail olunub. Cari ilin iyun ayının sonunda Çin Azərbaycanda neft və təbii qaz hasilatı sahəsinə ümumilikdə 800 milyon ABŞ dollarından çox sərmayə qoyub. Növbəti ay Azərbaycan tərəfi 100 nəfərdən çox tərkibdə nümayəndə heyətini Şanxaya, II Çin Beynəlxalq İdxal sərgisinə iştirak üçün göndərəcək. Mən əminəm ki, Azərbaycan şərabları, çərəzləri, balı, mürəbbələri və digər yüksəkkeyfiyyətli məhsulları Çin bazarına daxil olacaq. Çin təhsil sahəsində Azərbaycanın hökumət təqaüdçüləri üçün kvota yerlərini ildə 50 nəfərdən 70 nəfərədək artırıb, 2020-ci ildən isə onların sayının 100 nəfərə çatdırılacağı gözlənilir. Bakıda iki Konfutsi İnstitutu açıldığı andan 4 min azərbaycanlı tələbə Çin dili və Çin mədəniyyətini öyrənir və öyrədirlər. Çin və Azərbaycan iqtisadiyyat və ticarət investisiyaları, energetika, kənd təsərrüfatı və s. kimi sahələrdə əməkdaşlıq üçün böyük potensiala malikdirlər. Gələcəkdə Çin Azərbaycanla birgə enerji ehtiyatlarının kəşfiyyatında və istehsalında, şəbəkə və informasiya texnologiyaları üçün infrastruktur tikilməsində, kənd təsərrüfatı məhsullarının ixracı sahələrində əməkdaşlığı dərinləşdirməyə hazırdır. Çin ümid edir ki, Azərbaycan hökuməti Çin şirkətlərinə Azərbaycana sərmayə yatırmaq üçün daha əlverişli şərait yaradacaq".



Çin səfiri qeyd edib ki, uzun illər ərzində Çin və Azərbaycan Birləşmiş Millətlər Təşkilatı və Şanxay Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx qarşılıqlı fəaliyyət göstərir, hər iki tərəfin əsaslı maraqlarını və mühüm qayğılarını nümayiş etdirən məsələlərdə bir-birini qəti şəkildə dəstəkləyir, iki ölkənin başlıca maraqlarını birgə müdafiə edir. Qo Min deyib: "Çin Azərbaycan tərəfini yüksək dəyərləndirir və fəal şəkildə dəstəkləyir, beynəlxalq əməkdaşlığı dərinləşdirməyə, informasiya mübadiləsinə və vəziyyəti iki ölkənin və bütün inkişaf etməkdə olan ölkələrin marağına uyğun nizama salmağa hazırdır. Çin və Azərbaycan İpək Yolu üzərində qədim sivilizasiyalardır. ÇXR-in Sədri Si Cinpin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi "Qədim İpək Yolunun bərpası" strategiyası ilə yaxşı uyğunlaşır. Azərbaycan "Bir kəmər, bir yol" layihəsinə reaksiya verən və icrasında fəal iştirak edən ilk ölkələrdən biridir. 2015-ci ildə ölkələrimiz arasında bu sahədə əməkdaşlıq barədə sənəd imzalanıb. Prezident İlham Əliyev qeyd edib ki, transsərhəd daşımalarının potensialının üzə çıxarılması və Çindən Londona qədər İpək Yolunun bərpa olunması Azərbaycanın strateji məqsədidir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyası və Çin İctimai Elmlər Akademiyası İpək Yolu Tədqiqat Mərkəzinin yaradılması üzərində birgə fəaliyyət göstərirlər".

Səmimi və dostluq şəraitində keçən görüş zamanı Azərbaycanın və Çinin mediastrukturları arasında əməkdaşlığın gücləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Görüşün sonunda xatirə şəkilləri çəkdirilib.

# Hər iki tərəf üçün faydalı görüş





***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) İnsan resurslarının idarəedilməsi departamentinin təşəbbüsü ilə "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda gənc usta və usta köməkçiləri ilə görüş keçirilib.***

Görüşdə ASCO-nun İnsan resurslarının idarəedilməsi departamentinin rəisi Sevda Məmmədova, aparıcı mütəxəssisi Yeganə Nəsibova, gənclərlə iş üzrə koordinatoru Roza Bədəlova, mütəxəssisi Gülçin Aslanova, "Bibiheybət" Gəmi Təmiri Zavodunun Personalın idarəedilməsi və əmək haqqı şöbəsinin mütəxəssisi Rəşad Musayev və "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Personalın idarəedilməsi və əmək haqqı şöbəsinin rəisi Ruslan Nuriyev iştirak ediblər.

Görüş zamanı gənc mütəxəssislərin karyera inkişafı imkanları, qarşılaşdıqları problemlər, onların həlli yolları və proseslərin təkmilləşdirilməsi ilə bağlı təkilfləri müzakirə olunub. Gənc və perspektivli gənclərin idarəetməyə və istehsalat prosesinə gətirdiyi və tətbiq etmək istədiyi yeniliklərdən danışılıb. Eyni zamanda, nəzəri biliklərin artırılması və peşəkarlıq göstəricilərinin təkmilləşdirilməsi məqsədilə gəmiqayırma və gəmi təmiri sahəsi üzrə xaricdə magistratura və doktorantura pillələri üzrə təhsil və təcrübə mübadiləsi proqramlarının tətbiqi imkanları müzakirə olunub.

# Gəmi birləşmələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi hazırlıqları yoxlanılıb

***Hərbi Dəniz Qüvvələrinin (HDQ) enerji infrastrukturunun mühafizəsi üzrə Xəzər dənizinin Azərbaycana aid hissəsində taktiki təlimlər keçirilib.***





Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması məsələlərinin işlənilməsi üzrə keçirilən təlimin məqsədi gəmi birləşmələri tərkibində birgə fəaliyyətin təşkili olub.

Təlimdə qüvvələrin idarəolunması üzrə komandirlərin və qərargahların bacarıqları təkmilləşdirilib, gəmi birləşmələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi hazırlıqları yoxlanılıb.

# Bərənin yaratdığı faciənin səbəblərinin araşdırılması ilə bağlı yenidən məhkəmə açılacaq

***1994-cü il sentyabrın 28-də İsveç sahillərində qəzaya uğrayan eston bərəsinin yaratdığı faciənin səbəblərinin araşdırılması ilə bağlı yenidən məhkəmə açılacaq.***




Tallin administrativ məhkəməsi 25 ildən sonra oktyabrın 24-də Estoniya hökumətini yenidən bu faciəni araşdırmağa məcbur edib.

Məhkəmə bu qərarı zərərçəkənlərin yaxınlarının şikayətinə əsasən qəbul edib. Müəyyən olunub ki, indiyədək həlak olanların yaxınlarının haqlı tələbləri diqqətsiz qalıb və yeni istintaq başlamağa qərar verilib. Bərədə ölən və fəlakətdən sağ çıxanların yaxınları 2016-cı ilin oktyabrında Estoniyanın Baş Nazirinə yeni araşdırma başlatması üçün sorğu göndəriblər. Yalnız 2018-ci ilin noyabrında ölkənin Ədliyyə Nazirliyi bu məsələnin həllinin hökumətin səlahiyyətinə aid olduğunu açıqlayaraq istintaqın yenidən başlaması ilə əlaqədar hökumətə müraciəti məqsədəuyğun saymışdı.

***Aygün Əliyeva***

# ASCO-nun əməkdaşı Çindən zəngin təəssüratla qayıdıb






***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasının Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya şöbəsinin əməkdaşı Fərid Əliyev Çin Xalq Respublikasında seminarda iştirak edib.***

İnkişaf etməkdə olan ölkələr (İEOÖ) üçün nəzərdə tutulmuş seminar dənizdə geoloji kəşfiyyat işlərinin aparılması, sahil zonasında ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması məsələlərinə həsr olunub.

Bu seminar Çin Xalq Respublikasının Ticarət Nazirliyinin maliyyə dəstəyi ilə Çin Xalq Respublikasının Təbii Sərvətlər Nazirliyi, Çin Dövlət Geoloji Kəşfiyyat Təşkilatı və onun İnkişaf Tədqiqat Mərkəzi tərəfindən təşkil edilib. Seminar üç hissədən ibarət olmaqla Pekin, Tianjin və Şandong əyalətinin Qingdao şəhərlərində baş tutub. Seminar zamanı iştirakçı ölkələrin nümayəndələri üçün sözügedən qurumların professorları, elmi işçiləri və mütəxəssisləri müxtəlif mövzularda mühazirələr oxuyub və aidiyyəti qurumlara, təşkilat və institutlara səfərlər təşkil olunub. Həm Qingdao, həm də Tianjin şəhərlərində təcrübə mübadiləsi çərçivəsində iştirakçı ölkələrin (Azərbaycan, Argentina, Kuba, Pakistan, Qana, Mərakəş) nümayəndələri təqdimatlar ediblər.

Fərid Əliyev öz təqdimatında Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixi inkişaf yolu, Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz hasilatında ASCO-nun ixtisaslaşdırılmış donanmasına aid gəmilərin xüsusi rola malik olduğu barədə seminar iştirakçılarını məlumatlandırıb. O, ASCO-nun ətraf mühitin qorunmasında "İSO 14001:2015" Ekoloji İdarəetmə Standartının, "Marpol 73-78" Beynəlxalq Məcəlləsinin və Beynəlxalq Dəniz Təşkilatının Gəmilərin Təhlükəsiz Hərəkəti və Çirklənməyə Qarşı Beynəlxalq Təhlükəsiz İdarəetmə Məcəlləsinin (İSM) tələblərini rəhbər tutduğunu və Cəmiyyətinin beş əsas siyasətindən birinin məhz Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi üzrə Siyasət (KSƏTƏMM) olduğunu iştirakçıların nəzərinə çatdırıb.

Tianjin şəhərinin mətbuat mərkəzində seminarın bağlanış mərasimi təşkil edilib. Sonda iştirakçı ölkələrin nümayəndələrinə sertifikatlar verilib.

# Yubiley pul nişanı tədavülə buraxılıb

***Azərbaycan Mərkəzi Bankı (AMB) tədavülə yeni yubiley pul nişanı buraxıb.***




2019-cu ildə müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yaradılan və Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universitetinin təsis edilməsinin 100-cü ildönümü tamam olur.

AMB-dan bildirilib ki, bu yubiley tarixinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Mərkəzi Bankı tərəfindən nominal dəyəri 5 AZN təşkil edən gümüş yubiley pul nişanı tədavülə buraxılıb.

Yubiley pul nişanının çəkisi 1 troy unsiyası – 31,1 qram (+ 0,1 qram), diametri isə 38,61 millimetr təşkil edir. Pul nişanı Böyük Britaniyanın "The Royal Mint" şirkətində beynəlxalq standartlara uyğun "Pruf" texnologiyası əsasında istehsal edilib.

Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş yubiley pul nişanının ön tərəfində universitetin inzibati binasının təsviri, ümummilli lider Heydər Əliyevin kəlamı və imzası, 8 guşəli ulduzlar, milli naxış və ornamentlər, arxa tərəfində isə Azərbaycan Respublikasının Dövlət Gerbi və pul nişanının nominalı təsvir olunub.

Yubiley pul nişanı nominal dəyəri ilə ölkə ərazisində rəsmi ödəniş vasitəsidir.

# İlk dəfə 14 yaşında dənizçilər klubunda çıxış edən dahi sənətkar

***Azərbaycan musiqi mədəniyyəti tarixində onun öz yeri, öz çəkisi var. Zaman keçir, illər dəyişir, amma onun sənətinə və şəxsiyyətinə tükənməz sevgi nəinki azalmır, əksinə daha da artır. Bu gün Müslüm Maqomayev təkcə azərbaycanlı kimi yox, həm də bəşəri sənətkar kimi qəbul edilir, tanınır, öyrənilir...***

Hər il oktyabrın 25-də zəmanəmizin görkəmli müğənnisi Müslüm Maqomayevin xatirəsi anılır. Sənətə və əsl sənətkara hörməti olan hər bir kəs Fəxri xiyabana gələrək Müslüm Maqomayevin məzarını ziyarət edir, üzərinə təzə-tər güllər düzür.

Hər bir kəsin ölümündən sonrakı vaxt axarında böyük bir boşluq yaransa da, bunu Müslüm Maqomayev kimi sənətkarlara şamil etmək olmaz. Çünki onun zamanı heç vaxt dayanmayıb. Zaman və zamansızlıq, ölüm və ölümsüzlük daim onunla birgə addımlayır. Bu mənada Müslüm Maqomayevin yaşı əllini də, yetmişi də, yüzü də çoxdan haqlayıb. Onun yaşı dünyanın yaşı qədər qədim və gəncdir. Qədimdir ən azı ona görə ki, onu dinlədikcə kamilləşirsən, müdrikləşirsən, gəncdir ona görə ki, ona qulaq asdıqca dünyaya gəlişinə, varlığına içindən bir şükranlıq keçir, təravətini, cavanlığını qorumaq, zamanı saxlamaq istəyirsən. Bütün bunlar bir daha göstərir ki, qalibiyyət yalnız və yalnız Tanrı istedadını öz zəhməti sayəsində cilalamağı bacaranlara məxsusdur. Əbədiyaşarlığın kökündə, mayasında fitri istedadla yanaşı, onu qorumağı, tanıtmağı və milyonlara sevdirməyi bacarmaq dayanır.





Yayın isti avqust günlərində dünyaya göz açan Müslüm bütün bu yer üzünə sadədən sadə, adidən adi gəldi. İkinci cahan savaşının o qanlı-qadalı illərində bütün narahatlıqlara, gərginliklərə baxmayaraq, gəlişi ilə sanki, doğmalarının qəlbinə bir sakitlik, həlimlik gətirdi. Hamı kimi o da müharibənin ağrısını-acısını daddı, doğma, əziz atasını itirdi. Amma özünü itirmədi, hər addımda, hər yerdə özü olmağı bacardı.

Azərbaycanın görkəmli opera və estrada müğənnisi Müslüm Maqomayev 1942-ci il Bakı şəhərində anadan olub. Birinci dəfə 14 yaşında dənizçilər klubunda çıxış edən M.Maqomayev ilk uğurunu 1962-ci ildə qazanıb. Maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına yollanan Müslüm oradan medalla qayıdıb. Bu münasibətlə populyar "Oqonyok" jurnalı onun portretini və "Bakılı gənc dünyanı fəth edir" başlıqlı məqalə dərc etmişdi. M.Maqomayev XX əsrin 60-cı illərində Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub, "La Skala" Milan teatrında təcrübə keçib. Enriko Pyatsa ilə "Sevilya bərbəri" operasından Fiqaronun, "Toska" operasından Skarpianın partiyalarını hazırlayıb.

1963-cü ildə Moskvanın P.Çaykovski adına salonunda onun ilk solo konsertinə bilet tapmaq mümkün deyildi. 1960-70-ci illərdə Müslüm Maqomayevin məşhurluğunun hüdudu yox idi, konsert salonlarındakı yerlər azlıq edir, o, stadionlarda minlərlə dinləyici qarşısında çıxış edir, daim qastrol səfərlərində olurdu. Mahnıları yazılmış vallar çox böyük tirajla buraxılırdı. Məhz buna görə də onu sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı, rəmzi adlandırırdılar. Keçmiş SSRİ-də klassik ariyaları və mahnıları estradaya məhz Müslüm gətirmişdi. Bütün bunlara görə ona 31 yaşında SSRİ Xalq Artisti adı verilmişdi. Onun repertuarında 600-dək əsər var. Böyük müğənni həm də gözəl mahnılar müəllifidir. Onun Xalq Şairi Nəbi Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan əzəmətli "Azərbaycan" mahnısı ölkəmizə ithaf olunmuş ən gözəl əsərdir. Müğənni həm də "Oxuyur Müslüm Maqomayev", "Nizami", "Moskva notlarda" filmlərində çəkilib.

Müslüm Maqomayev çoxşaxəli sənətkar idi. Belə geniş diapazona malik səs çox az müğənnilərə qismət olur. Müslüm Maqomayev ifa etdiyi hər mahnıda, ariyada bir dünya yaradırdı.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan böyük müğənninin gözəl tembrli gözəl səsi, təkrarolunmaz səhnə ustalığı və nadir musiqi duyumu sənət aləmində atdığı ilk addımlardan onu milyonların sevimlisinə çevirmişdir.

Azərbaycan xalqının zəngin musiqi ənənələrinin qorunub saxlanılmasında və müasir dövrdə layiqincə inkişaf etdirilməsində Müslüm Maqomayevin yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Dövlət estrada-simfonik orkestri mühüm rol oynayıb. Orkestrin rəngarəng proqramlarında M.Maqomayev əsl sənətkara xas əzmkarlıqla hər bir ifasını bir aktyorun teatrı səviyyəsinə qaldırmağa nail olub.

M.Maqomayevin milli musiqi mədəniyyətimizin inkişafı sahəsində mühüm nailiyyətləri hər zaman yüksək qiymətləndirilib və o, müstəqil Azərbaycan Respublikasının ali mükafatları - "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilib.

Müslüm Maqomayev 2008-ci ildə 66 yaşında vəfat edib və Bakıdakı birinci Fəxri xiyabanda dəfn olunub.

Dünya şöhrətli opera və estrada müğənnisi, bəstəkar, SSRİ Xalq Artisti Müslüm Maqomayevin 70 və 75 illik yubileyləri dövlət səviyyəsində qeyd edilib.

Dünyanı fəth edən bariton Müslüm Maqomayevin ölümündən on bir il ötsə də, onun əziz xatirəsi unudulmur. Zəmanəmizin musiqi aləminin ən parlaq ulduzlarından olan Müslümlə bağlı xatirələr Azərbaycan xalqının qəlbində özünə əbədi yuva salıb.

Biz də onun haqqında ürəyimizdən keçən sözlərdən bir neçəsini dilə gətirdik ki, ölməz sənətkarımızın ruhu şad olsun.

# "Neptun" üzən tərsanəsində hər işin öz ustası var

*Gəmilərin uğurlu səfərlərində onların sazlığını təmin edən gəmi təmirçilərinin də zəhmət payı var. ASCO-nun donanmalarına aid gəmilər də təmirə dayanarkən məhz onların əllərinin qabarı ilə istismara yararlı vəziyyətə gətirilir. Çətin peşə sahibləri ilə yaxından tanış olmaq üçün yolumuzu "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun "Neptun" üzən tərsanəsinə saldıq.*








"Neptun" tərsanəsi 2014-cü il dekabrın 29-da istismara verilib. Hazırda Xəzərdə ən müasir üzən tərsanədir. 8 min ton yük qaldırmaq qabiliyyəti olan bu tərsanənin uzunluğu 158, eni 37 metrdir. Divarlarının hündürlüyü 13 metrə çatır. 6 moduldan ibarət tərsanə müxtəlif növ gəmilərin təmiri üçün nəzərdə tutulub.

"Neptun"la tanışlıq zamanı məlum oldu ki, hazırda burada "Şəki" gəmi-bərəsinin təmiri yekunlaşmaq üzrədir. Tərsanədə qızğın iş gedirdi. Qaynaqçılar, növbə mexanikləri, növbə elektrikləri və digər heyət üzvləri intensiv iş rejimində fəaliyyət göstərirdilər. Heyəti bir neçə dəqiqəlik olsa da işdən ayırıb yaxından tanımaq istədik.

Üzən tərsanələr qrupunun rəisi Hümbət Hacıyev bizi tərsanənin körpüsündə gözləyirdi. Çaşqın halda olduğumuzu görüb tərsanədə ən adi günün belə keçdiyini bildirdi. Qrup rəhbəri ilə söhbətimizi onun kayutunda davam etdirdik.

Ziyalı ailəsində dünyaya göz açan Hümbət Hacıyev Azərbaycan Dövlət Politexnik İnstitutunun "Sənaye avadanlıqlarının quraşdırılması və təmiri" fakültəsinin məzunudur. 1985-ci ildən dənizdə çalışan Hümbət müəllim, bir müddət kran maşinisti, növbə mexaniki, növbə köməkçisi işləyib. 5 ildir "Neptun"un işgüzar kollektivinə rəhbərlik edir. O özünü rəisdən daha çox mehriban bir ailənin başçısı sayır. Xüsusən cavanlara doğma övladı kimi baxır. Hümbət Hacıyev deyir ki, işə can yandırmasan sonda nə deməyə sözün, nə gözə görünməyə üzün olacaq.

Söhbətimizin bu yerində Üzən tərsanələr qrupunun rəis müavini Şahin Mirzəyev də əlində gəmi çertyoju ilə kayuta daxil oldu. Fürsətdən istifadə edib onu da söhbətə tutduq.

Öyrəndik ki, 1981-ci ildən gəmi təmiri sahəsində çalışır. Hərbi xidmətdən qayıtdıqdan sonra Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakı filialını bitirib. Müxtəlif vəzifələrdə işləyib. Sözügedən tərsanə istismara veriləndə burada işləməyə dəvət alıb. İlk gündən tərsanənin güc qurğuları və mexanizmlərini bacarıqla istismar edir. İşinin incəliklərini gənclərə həvəslə öyrədir. Asudə vaxtlarında mütaliə etməyi xoşlayır.

Tərsanəni gəzirik. 46 ilin elektrik mexaniki olan Qurban Aslanov da heyətin əksər üzvləri kimi, tərsanə istismara verildiyi gündən burada çalışır. Öz işinə məsuliyyətlə yanaşır. Boş vaxtlarında is yoldaşlarına kömək edir. Ən böyük arzusu dünyanın bütün okean və dənizlərindən ASCO-nun gəmilərinin xoş sorağını eşitməkdir.

Digər növbə elektrik mexaniki Emil Baxşıyevin 27 yaşı var. 5 ilin dənizçisinin 4 ili bu tərsanə ilə bağlıdır. Öncə Elektrik quraşdırma sexində işləyib. Əsas işi gəmiyə verilən gərginliyi nizamlamaq və ona nəzarət etməkdir. Asudə vaxtlarında qrafik dizayn və animasiya ilə məşğul olur.

Sonra Hümbət müəllim bizi növbə elektrikləri Azər Hacıyev və Emil Zəkiyevlə tanış edir.

Azərin 30 yaşı var. Müxtəlif vaxtlarda "Akademik Zərifə Əliyeva", "Naftalan", "Ordubad" və s. gəmilərdə elektrik kimi üzüb. Növbədə olarkən gəmidə elektrik qurğularının qaydasında işləməsinə diqqət yetirir. Elektrik itkisinin və qısaqapanmanın qarşısını alır.

Digər növbə elektriki 32 yaşlı Emil 2007-ci ildən gəmi təmiri sahəsində çalışır. Arzusu elektrik mexaniki olmaqdır. Asudə vaxtlarını ailəsinə, ən çox da 3 yaşlı oğlunun tərbiyəsinə həsr edir.

Növbəti müsahiblərimiz növbə mexanikləri oldu. 36 ilin dənizçisi olan Oruc Quliyev peşəsinin vurğunu kimi tanınır. Politexnik institutunu bitirib və yalnız tərsanələrdə çalışıb. 2014-cü ildən "Neptun"dadır. Mexanizmlərin, kranların, yanğınsöndürən nasosların sazlığına həmişə nail olduğu sizə asan gəlməsin.

Digər növbə mexaniki Rəyis Rəhmanov tərsanədə peşəsinin ustası, səmimi və təvazökar insan kimi xarakterizə edilir. 32 ilin dənizçisidir. Dənizçi formasını ilk dəfə görən gündən dənizçi olmaq qərarına gəlib. Bu arzu onu Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbinə gətirib çıxarıb. Məktəbi bitirdikdən sonra motorçu, mexanik işləyib. "Neptun"da işlədiyi son 3 ildə onu həm də mütaliə həvəskarı kimi tanıyırlar. Sevdiyi yazıçılar arasında Çingiz Abdullayevin, Elxan Elatlının, Xalid Hüseyninin adını çəkən Rəyis müəllimin sevdiyi janr detektiv janrıdır. Oxuduğu kitabları digər heyət üzvlərinə verir və onların da mütaliəyə həvəsini artırır.

Hər bir gəmidə olduğu kimi, tərsanədə də ümumi səliqə-səhmana cavabdeh onların işi az deyil. Babası, babasının qardaşı və atası da dənizçi olan İlqar Məmmədovun 27 yaşı var və 4 ildir matros işləyir. İstehsalatdan ayrılmadan ali təhsil aldığı üçün yəqin nə vaxtsa bu işgüzar gəncin çiyinlərində kapitan paqonu da görəcəyik.

Reportajımızın əvvəlində "Neptun"un fəaliyyətindən və gəmi təmirindəki mühüm rolundan danışmışdıq. Bu tərsanənin istismara verilməsində bir çoxlarının, o cümlədən tərsanəyə ezam olunan boru çilingəri Vidadi Abdullayevin də böyük zəhməti olub.

Onunla söhbət edərkən yaxınlıqda bir dənizçi diqqətimi çəkdi. Məlum oldu ki, 23 yaşlı İbrahim Hüseynov da bu tərsanəyə əmrlə ezam olunub və bir çox işlərdə Hümbət müəllimin yaxın köməkçisidir. Amma, təmirə gələn gəmi tərsanəyə qaldırılan zaman əlindən gələn köməyi digər iş yoldaşlarından da əsirgəmir. Babası və əmisi də dənizçi olan İbrahim uşaqlıqdan rəsm çəkməyi sevir və çəkdiyi rəsmlərin əsas mövzusu da dənizdir. "Həmişə çəkdiyim gəmiləri real həyatda görmək istəmişəm, elə bu maraq da məni dənizçiliyə gətirib çıxardı" deyən İbrahimin orta musiqi təhsili də var. Arabir fortepianoda və gitarada "mahnı qanadlarında süzməyi" xoşlayır. Hələ bu harasıdır? İbrahim mahnılar da bəstələyir. Doğru deyiblər, istedadlı insan hər şeydə istedadlıdır.

Daha bir işgüzar gənci - kran maşinisti Ehtiram Cabbarovu da sizə təqdim etmək istəyirdik. Amma Ehtiram kranın kabinəsində olduğu üçün onu işdən ayırmadıq. Bizə yalnız iş başında onun fotosunu çəkmək qismət oldu.

Saatın əqrəbləri artıq nahar vaxtını göstərirdi. Dənizçilər nahara çıxanda, biz də təəssüratlarımızı sizə çatdırmağa tələsdik...

*İlqar Quliyev,*
*Turab Məmmədov*

# Ölkə əhalisinin sayı 10 milyon 35 min 351 nəfərə çatıb

*Ölkə üzrə əhalinin sayı ilin əvvəlindən 53 min 894 nəfər və ya 0,5 faiz artaraq bu il sentyabrın 1-nə 10 milyon 35 min 351 nəfərə çatıb. Əhalinin 52,8 faizi şəhər, 47,2 faizi kənd yerlərində məskunlaşıb, 49,9 faizi kişilər, 50,1 faizi isə qadınlardır. Bir kvadrat kilometrə düşən əhalinin sayı 116 nəfərdir.*



Dövlət Statistika Komitəsindən bildirilib ki, bu ilin 8 ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 91 min 513 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,8-dən 13,9-a qədər artıb. Doğulanların 53,3 faizi oğlan, 46,7 faizi isə qız uşaqlarıdır. Körpələrdən 2144-ü əkiz, 54-ü üçəm, 4-ü isə dördəm doğulanlardır.

Cari ilin yanvar-avqust aylarında ölkədə 37 min 916 ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,0-dan 5,7-yə düşüb.

Səkkiz ayda qeydiyyat şöbələri tərəfindən 42 min 163 nikah və 11 min 317 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ötən ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 6,2-dən 6,4-ə, boşanmaların sayı isə 1,5-dən 1,7-yə qədər artıb.

Yanvar-avqust aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 1342 nəfər Azərbaycana gələn, 1045 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 297 nəfər təşkil edib.

# ADDA-ya yüksək balla qəbul olmuş 42 tələbəyə ASCO-nun vəsaiti hesabına əlavə təqaüd veriləcək

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) təhsil müəssisələrində oxuyan tələbələrin təhsilə marağının artırılması istiqamətində həyata keçirilən layihələr davam etdirilir.*



ASCO-nun sədri Rauf Vəliyevin əmrinə əsasən, Azərbaycan Dövlət Dəniz Akademiyasına bu il yüksək balla qəbul olmuş 42 tələbəyə 2019-2020-ci tədris ilində şirkətin vəsaiti hesabına əlavə təqaüd ödəniləcək. Belə ki, 450-500 bal toplayanlar 100, 501-550 bal toplayanlar 120, 551-600 bal toplayanlar 150, 601-700 bal toplayanlar 180 manat təqaüd alacaqlar.

Qaydalara əsasən, təqaüd verilərkən tələbələrin dövlət hesabına və ya ödənişli əsaslarla təhsil almalarına fərq qoyulmayacaq. Həmçinin, bu təqaüdlərin təyin edilməsi tələbələrə dövlət tərəfindən təsis edilən təqaüdlərin verilməsini dayandırmır.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əsas strateji hədəflərindən biri də gənclərdən ibarət peşəkar kadrların hazırlanmasıdır. Bu məqsədlə ASCO-da daxili imkanlar hesabına mütəmadi olaraq beynəlxalq səviyyədə tanınan təcrübəli gəmiçilərin təlimləri təşkil edilir, gənc əməkdaşların dənizçilik sahəsində ixtisaslaşan nüfuzlu şirkətlərdə təcrübə keçmələri üçün xüsusi layihələr həyata keçirilir.

Bundan başqa, Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələrinin beynəlxalq standartlara uyğun inkişafının təmini və peşəkarlığının artırılması məqsədi ilə onların ASCO-nun xarici sularda üzən gəmilərində təcrübə keçmələrinə imkan yaradılır.

Bu, şirkətin kadr potensialının formalaşmasında savadlı, beynəlxalq standartlara cavab verən gənc dənizçilərə üstünlük verməsinin bariz nümunələrindən biridir.

Onu da əlavə edək ki, 2018-2019-cu tədris ilindən Azərbaycan Dövlət Dəniz Akademiyasında və Akademiyanın nəzdində fəaliyyət göstərən Dənizçilik Kollecində əyani təhsil alan və təhsildə yüksək nəticələr göstərən tələbələrə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin hesabına əlavə təqaüd verilir.

# Azərbaycan tərəfi BTQ dəmir yolu xətti ilə sərnişin daşımalara başlamaq üçün tam hazırdır

*Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə sərnişin daşımalarının gecikməsi Gürcüstan tərəfindəki texniki problemlərlə əlaqədardır.*



Bu sözləri AZƏRTAC-a müsahibəsində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib.

O bildirib ki, Azərbaycan tərəfi BTQ dəmir yolu xətti ilə sərnişin daşımalara başlamaq üçün tam hazırdır. Lakin Gürcüstan tərəfində mövcud olan bəzi texniki problemlər bu daşımalara başlamağa imkan vermir: "Gürcüstan tərəfində xüsusi əyləc sistemli lokomotivlər yoxdur. Bu da sərnişin daşımaları üçün problem yaradır".

QSC sədri deyib: "Bizim qatarlarımız və vaqonlarımız hazırdır və biz sərnişin daşımalarına başlaya bilərik. Lakin bu yolda hərəkət etmək üçün Gürcüstan tərəfinin dağ yerlərində əks əyləcləmə sistemi olan elektrovozları yoxdur. Bu, yeni vaqonlara uyğunlaşdırılıb quraşdırılmalıdır. Lakin onlarda bu qurğular yoxdur".

C.Qurbanov əlavə edib ki, əgər məsələ yaxın vaxtlarda həllini tapmasa "Azərbaycan Dəmir Yolları" QSC Gürcüstan tərəfinə öz lokomotivlərini təklif edəcək: "Bu məsələ həll edildikdən sonra biz sərnişin qatarlarını xətta buraxa bilərik. Əgər bir-iki aya vəziyyət düzəlməsə və məsələ həll olunmasa Azərbaycan öz elektrovozlarını və ya dizel lokomotivlərini təklif edəcək", - deyə C.Qurbanov vurğulayıb.

O, həmçinin qeyd edib ki, BTQ-yə əlavə yüklərin cəlb edilməsi məqsədilə Çin və Rusiya ilə danışıqlar aparılır.

# "Xəzər dənizində suyun səviyyəsi və təsirləri"

*Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Neft və Qaz İnstitutunda Azərbaycan-Fransa Universiteti və Türkiyənin Dokuz Eylül Universitetinin birgə təşkilatçılığı ilə beynəlxalq elmi seminar keçirilib.*

Tədbirdə AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, akademik Fəxrəddin Qədirov, bölməyə daxil olan elmi müəssisə və təşkilatların əməkdaşları, tələbələr və türkiyəli alimlər iştirak ediblər.

Seminarı Neft və Qaz İnstitutunun elmi katibi, yer elmləri üzrə fəlsəfə doktoru Şəlalə Hüseynova açaraq tədbirin gündəliyi barədə iştirakçılara məlumat verib.

Sonra Dokuz Eylül Universitetinin professoru Mustafa Ergünün "Xəzər dənizində suyun səviyyəsi və təsirləri" mövzusunda məruzəsi dinlənilib. Alim bildirib ki, Xəzər çökəkliyi dünyada insanların məskunlaşdığı ilk məskənlərdən biri sayılır və dənizdə suyun səviyyəsi hər 400 ildən bir enib-qalxdıqca burada yaşayan insanlar ətraf ərazilərə köç etmək məcburiyyətində qalıblar. Bu gün tarixi Xəzər bölgəsinin mədəniyyətinə Azərbaycan, Türkiyə, Rusiya, Türkmənistan, İran, Misir, Hindistan və Pakistanda rast gəlinir.

Mustafa Ergün məruzəsində, həmçinin Xəzər, Mesopotamiya, Misir və hindi dil qrupları, onların oxşarlığı, eləcə də tarixdəki ilk yazı mədəniyyəti haqqında məlumat verib.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# TAP layihəsi üzrə işlərin təxminən 90 faizi tamamlanıb

*Sentyabrın sonuna Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 89,8 faizi icra edilib.*

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.

Qeyd edək ki, TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada boruların tikintisinə başlanılıb. Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Hazırda qəbul terminalının inşasının 32 faizi yekunlaşıb. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib.

TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. İlin sonuna kimi Yunanıstan və Albaniya marşrutunda boruların 100 faizi torpağa basdırılacaq. Yunanıstan, Albaniya və İtaliyada boru kəməri marşrutunun 97 faizində torpaq örtüyü bərpa edilib, boruların 99 faizi marşrut xətti boyunca düzülüb. Üç ölkədə boruların 99 faizi qaynaqlanıb, xəndəkqazma işlərinin isə 99 faizi tamamlanıb.

TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Boru kəmərinin inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizçilik tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal olunub.



Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"-dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# “Dəniz ətraf mühitinin qlobal problemləri”







***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Dəniz Akademiyasında ingilis dilli qruplarda təhsil alan tələbələr üçün “Dəniz ətraf mühitinin qlobal problemləri” mövzusunda seminar keçirilib.***

Seminarı kapitan Titos Giannakakis aparıb və dəniz ətraf mühitinə həssaslığın vacibliyindən danışıb. O, gəmi tullantıları, dənizə axıdılan çirkab suların dəniz ətraf mühitinə mənfi təsir göstərdiyini bildirib. Bununla belə, kapitan düzgün yanacaq yağlarının istifadəsi, gəmilərin təkrar emalı və dənizin qorunması üçün IMO-nun tələbləri və tətbiq etdiyi texnoloji yeniliklər barədə də iştirakçılara ətraflı məlumat verib.

İki saat davam edən seminar interaktiv şəkildə keçib. Gələcəyin gəmi sürücüləri və mexanikləri fikirlərini bölüşüb, onları maraqlandıran sualları səsləndiriblər.

# ASCO-nun Təlim-Tədris Mərkəzində təhlükəsizliklə bağlı təlim keçirilib





***Təlim-Tədris Mərkəzində “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tərkibində fəaliyyət göstərən Təlim-Tədris Mərkəzində əməyin təhlükəsizliyinə və IMO-nun SOLAS - “Dənizdə insan həyatının mühafizəsinə dair” Beynəlxalq Konvensiyasında nəzərdə tutulan ümumi təhlükəsizlik tələblərinə həsr olunmuş təlim keçirilib.***

“SAIPEM” VƏ Abşeron yatağının operatoru olan birgə əməliyyat şirkətinin nümayəndələrinin iştirak etdiyi təlimi kapitan Titos Giannakakis aparıb.

Titos Giannakakis təlim proqramının əhəmiyyəti barədə iştirakçılara ətraflı məlumat verib.

Təlimçi hadisə zamanı düzgün müdaxilə üsulları, heyətin uğurlu çalışması və təhlükəsizlik vasitələrindən istifadəyə dair praktiki məşqlər keçirib.

Beş günlük təlim müddətində iştirakçıların fikirləri dinlənilib, sualları cavablandırılıb.

Qeyd edək ki, bu təlim 2010-cu ildə qəbul olunmuş yeni IMO tələblərinə əsasən istər nəqliyyat, istərsə də ofşor donanmada çalışan bütün dənizçilər üçün məcburidir.

# Gələcəyin dənizçiləri gəmilərdə nəzəri biliklərini praktik tətbiq edirlər










***Azərbaycan Dövlət Dəniz Akademiyasının “Dəniz naviqasiyası mühəndisliyi” ixtisasının “Sabit Orucov” gəmisində üzmə təcrübəsi keçən tələbələrinə “ASV-2” qəza nəfəsalma aparatından istifadə qaydalarına dair praktiki təlim məşğələləri keçirilib.***

Tələbələrə “Yanğın həyəcanı” siqnalı zamanı görüləcək tədbirlər haqqında nəzəri bilgilər çatdırıldıqdan sonra gəmi kapitanının göstərişi ilə həyəcan siqnalı verilib. Şərti yanğının söndürülməsi mümkün olmadığı üçün sərnişinlər və gəmi heyəti kapitanın ”Gəmini tərk et” əmrini alıb. Kollektiv xilasetmə qayığı suya endirilib. Bu prosesin bütün incəlikləri “Sabit Orucov” tədris gəmisinin heyəti tərəfindən tələbələrə ətraflı izah olunub.

Qeyd edək ki, Azərbaycan Dövlət Dəniz Akademiyasının “Dəniz naviqasiyası mühəndisliyi”, “Gəmi energetik qurğularının istismarı mühəndisliyi” və “Elektrik mühəndisliyi” ixtisasları üzrə təhsil alan tələbələri 4 illik təhsil müddətində ümumilikdə 52 həftə üzmə təcrübəsində olurlar. ASCO-nun Xəzərdə üzən müxtəlif təyinatlı gəmiləri ilə yanaşı, Qara və Aralıq dənizlərində də yükdaşımalarla məşğul olan gəmilərdə təcrübə keçən tələbələr nəzəri biliklərini praktik tətbiq edirlər.

“Sabit Orucov” təlim-tədris gəmisi 2016-cı ildən ADDA-nın tələbələrinin ixtiyarındadır. Digər gəmilərdə olduğu kimi, burada da hər üç ixtisas üzrə təhsil alan tələbələr nəzəri biliklərlə yanaşı, təlim prosesində də iştirak etmək imkanı qazanıblar.

# Xəzər dənizində ən dərin quyu Heydər Əliyev adına yarımdalma qazma qurğusu ilə qazılıb



***Prezident İlham Əliyevin göstərişi ilə 2013-cü ildə inşasına başlanılmış və dövlətimizin başçısının iştirakı ilə rəsmi açılış mərasimi ilə Xəzər dənizində əməliyyatlara yola salınmış Heydər Əliyev adına 6-cı nəsil yarımdalma qazma qurğusu “Kaspian Drilinq Kompani” şirkətinin idarəçiliyi ilə ötən ilin əvvəlindən qazma işlərini apardığı “Abşeron” yatağının “ABD-001” quyusunda qazma əməliyyatlarını müvəffəqiyyətlə başa vurub. Hazırda quyudakı rezervlərin qiymətləndirilməsi üzrə sınaq işləri yekunlaşır.***

Xatırladaq ki, Heydər Əliyev adına 6-cı nəsil yarımdalma qazma qurğusu “Kaspian Drilinq Kompani” şirkətinin rəhbərliyi ilə Azərbaycan ərazisində inşa edilib. Layihənin maliyyələşdirilməsi 90 faizi Azərbaycan Respublikası Dövlət Neft Fondu, 10 faizi isə SOCAR tərəfindən olmaqla həyata keçirilib. Xüsusi qeyd etmək lazımdır ki, satınalmaların səmərəli planlaşdırılması, tikintinin cədvələ uyğun vaxtında icra edilməsi və ciddi layihə menecmenti hesabına “Kaspian Drilinq Kompani” layihənin ilkin büdcəsinə nəzərən 100 milyon ABŞ dollarından çox qənaətlə qurğunun tikintisini uğurla başa vurub.

Qurğu ümumilikdə neft və qaz sənayesində qazma əməliyyatlarında ən son müasir texnoloji avadanlıqlarla təchiz edilməklə dünyada öz texnoloji keyfiyyətləri və qazma xüsusiyyətlərinə görə unikal qurğulardan biri hesab edilir. Onun ümumi uzunluğu 106.5 metr, eni 69,5 metr, hündürlüyü isə 130 metrdir. Ümumi çəkisi 26 min tondur. Qurğu 1 kilometr suyun dərinliyinə qədər qazma əməliyyatları həyata keçirilə bilər. Qazma dərinliyi maksimum 12,2 kilometrdir. Bu göstərici ən dərin quyuları belə qazmağa imkan verir. Xüsusi vurğulamaq lazımdır ki, Xəzər dənizində ən dərin quyu “Kaspian Drilinq Kompani” şirkəti tərəfindən məhz Heydər Əliyev adına yarımdalma qazma qurğusu ilə “Abşeron” yatağının “ABD-001” quyusunda qazılıb (7411 metr). Qurğunun yükgötürmə qabiliyyəti 5600 ton, su tutumu isə 47500 tondur. Qurğuda heyətin maksimum sayı 160 nəfərdir. Qurğunun tikintisi prosesində 2395 işçi çalışıb ki, bu işçi qüvvənin də 80 faizə yaxını Azərbaycan vətəndaşlarından ibarət olub. Heydər Əliyev adına yarımdalma qazma qurğusu ən yeni texnoloji avadanlıqlara sahib olmaqla dünyada ən yüksək texnoloji üstünlüyə malik 6-cı nəsil yarımdalma qazma qurğularından biridir. O, həmçinin dünyada 20000 PSI atmosfer təzyiqi sistemi texnologiyasına sahib olan ilk yarımdalma qazma qurğusudur.

“Kaspian Drilinq Kompani Limited” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Farid Axundov yarımdalma qazma qurğusunun ilk qazma əməliyyatları ilə bağlı AZƏRTAC-ın sualını cavablandırıb.

- Heydər Əliyev adına yarımdalma qazma qurğusunun ilk qazma əməliyyatları ilə bağlı fəaliyyətini necə qiymətləndirərdiniz?

- Sirr deyil ki, dünya təcrübəsində adətən yeni tikilmiş qazma qurğularının həyata keçirdiyi qazma əməliyyatlarında fasilələr və müəyyən dayanmalar baş verir. Bu da çox zaman qurğuda quraşdırılmış avadanlıqların ilkin mərhələdə bir-birinə uyğunlaşmaması, belə olan halda müəyyən tənzimləyici tədbirlərin həyata keçirilməsi zərurəti ilə bağlıdır. Məmnuniyyətlə qeyd etmək lazımdır ki, Heydər Əliyev adına yarımdalma qazma qurğusunun tikintidən sonra həyata keçirdiyi bu ilk qazma əməliyyatında heç bir fasilə və ya nasazlıq meydana gəlməyib. Bu da gərgin əməyimiz və xüsusi səylərimiz nəticəsində Heydər Əliyev adına yarımdalma qazma qurğusunun tikintisinin yüksək peşəkarlıq və məsuliyyətlə yerinə yetirildiyinin bariz göstəricisidir.

***Nihad Budaqov***

# “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin dəmir yolu seqmentinin formalaşmasında Azərbaycan ilə İran xüsusi rola malikdirlər



***İran MDB və Baltikyanı ölkələrin Dəmir Yolu Nəqliyyatı Şurasına daimi üzv seçilib.***

Minskdə MDB və Baltikyanı ölkələrin Dəmir Yolu Nəqliyyatı Şurasının 71-ci iclası keçirilib. Şuraya assosiativ üzv olan İranı bu sessiyada İran Dövlət dəmir yolları idarəsinin baş direktoru Səid Rəsuli təmsil edib.

Şuranın işində tamhüquqlu üzvlərindən başqa, Gürcüstan, Latviya və Finlandiya kimi assosiativ üzv olan dövlətlərin də nümayəndələri iştirak ediblər. İlk dəfə olaraq, bu tədbirə Türkiyə və Monqolustanın da dəmir yolu idarələrinin rəhbərləri qatılıblar.

Qeyd edək ki, MDB dövlətləri ilə yanaşı, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin dəmir yolu seqmentinin formalaşmasında adıçəkilən ölkələr də iştirak edirlər. Bu işdə Azərbaycan ilə İran xüsusi rola malikdirlər. Belə ki, Asiya ilə Avropanı birləşdirəcək 7200 kilometrlik dəmir yolu xətti İrandan başlayaraq Azərbaycan və Rusiya ərazisindən keçərək Finlandiyaya qədər uzanacaq. Asiyadan Avropaya daşınan yüklər İranın Bəndər Abbas və Sakin okean sahilindəki Çabahar limanlarına daxil olacaq. Buradan isə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu vasitəsilə Rusiya ərazisindən keçməklə Helsinkiyə daşınacaq.

Xatırladaq ki, Rusiya ilə Azərbaycanın dəmir yolları hələ SSRİ dövründən bir-biri ilə əlaqələndirilib. İran isə bu sistemə Rəşt-Astara dəmir yolu vasitəsilə birləşəcək. Hazırda bu yolun Qəzvin-Rəşt hissəsi istismara verilib. Rəşt-Astara hissəsində isə işlər davam edir. Azərbaycan və İran Astarasını birləşdirən dəmir yolu körpüsü isə hazırdır və istifadə edilir.

İranın bu Şuraya üzv olması işlərin sürətləndirilməsi və digər problemlərin həllini asanlaşdıracaq.

Şura 1992-ci ildə yaradılıb və mənzil-qərargahı Moskvadadır.

***Rabil Kətanov***

# Ölkəmizdə icra edilən nəhəng infrastruktur layihələr Azərbaycana həm siyasi, həm də iqtisadi dividendlər gətirir

***Azərbaycan dünyada neft ölkəsi kimi məşhurdur. Müstəqilliyimizin bərpasından sonra ölkəmizin neft sənayesi dünyanın üzünə açıldı. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkə kimi qəbul edilir. Bu sahədə nəhəng tranzit layihələri də həyata keçirilib.***

Eyni zamanda ölkəmiz dünyanın nəqliyyat qurşağına çevrilib. Belə ki, tarixdə mövcud olan İpək yolunun bərpasından sonra Azərbaycan Şərqlə Qərbi birləşdirən mühüm ölkə sayılır. İpək yolunun bərpasında Azərbaycan həm təşəbbüsçü kimi, həm də ilk dəfə bu istiqamətdə mühüm işlər görən ölkə kimi tarixə düşüb. Azərbaycanda nəhəng infrastruktur layihələri icra edilir ki, bunun da sayəsində Şərqdən Qərbə və ya əksinə avtomobil və dəmiryolu ilə yüklərin daşınmasına böyük imkanlar yaranır.

Gürcüstanın ərazisində dəmiryolunun müasir dünya standartları səviyyəsinə çatdırılması və Türkiyənin sərhədinə kimi çətin bir relyefdə yeni dəmiryolu xəttinin çəkilməsi də məhz ölkəmizin ayırdığı maliyyə vəsaiti hesabına mümkün olub.

Xatırladaq ki, erməni lobbisi və onu dəstəkləyən beynəlxalq güclər Gürcüstan ərazisində bu işlərin görülməsinə mane olmağa çalışırdı. Prezident İlham Əliyev qətiyyətli addım ataraq bu nəqliyyat dəhlizinin Gürcüstan ərazisindən keçən hissəsində görüləcək işlər üçün vəsait ayırdı. Beləliklə, ölkəmizin də daxil olduğu bu nəhəng layihənin icrasının qarşısını kəsmək istəyən güclərin müqaviməti qırıldı.



“Şərq-Qərb” dəhlizinin Azərbaycan, Gürcüstan və Türkiyə ərazisində görülən işlər bu marşrutu cəlbedici etdi. Sözsüz ki, Orta Asiyada, xüsusilə Qazaxıstan və Türkmənistanda da aparılan işlər Çin və Avropa ölkələrində bu marşruta maraq göstərilməsinə səbəb oldu. Nəticədə bu dəhliz işlək vəziyyətə gəldi, Şərqdən Qərbə, Qərbdən Şərqə yüklər daşınmağa başlandı. Qeyd edək ki, həyata keçirilən tədbirlər sayəsində bu marşrut üzrə yükdaşıma ildən-ilə artmağa doğru gedir. Bu işdə Ələt Beynəlxaq Dəniz Ticarət Limanının tikilməsinin də xüsusi əhəmiyyəti var. Xəzərin şərq, şimal və cənub istiqamətlərindən gələn gəmi və bərələr yükləri həmin limana asanlıqla çatdıra bilir ki, bu da yüklərin şərq və qərb istiqamətinə ötürülməsinə imkan yaradır.

Bununla yanaşı, Azərbaycan beynəlxalq əhəmiyyətli digər bir layihənin də reallaşmasında önəmli oyunçuya çevrilib. 2000-ci ilin 12 sentyabr tarixində Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası sazişə əsasən, “Şimal-Cənub” nəqliyyat dəhlizinin təməli qoyuldu. Azərbaycan bu prosesin mərkəzində rol almağa başladı. Belə ki, “Şimal-Cənub”, “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan Azərbaycandır. Bu o deməkdir ki, Şimal və ya Cənub dəhlizindən gələn yüklər Azərbaycan vasitəsilə həm Şərqə, həm də Qərbə göndərilə bilər. Həmin şərtlər ölkəmizi bu layihədə mühüm tərəfdaşa çevirib. Çünki Azərbaycan bu layihələrdə iştirak etməsə, onların heç birini reallaşdırmaq mümkün deyildi.

“Şərq-Qərb” nəqliyyat dəhlizi kimi, “Şimal-Cənub” dəhlizi də region və regiondankənar ölkələrin diqqətini özünə cəlb edib. Bunun nəticəsidir ki, Azərbaycanla yanaşı, Belarus, Bolqarıstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı,- Tacikistan, Türkiyə və Ukrayna da bu layihəyə qoşularaq onu qanuniləşdirmək üçün ratifikasiya etmişdir.

Həmin ölkələrin “Şimal-Cənub” nəqliyyat dəhlizinə qoşulmaq istəməsi başadüşüləndir. Belə ki, dəhlizin yaradılmasında əsas məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətinin azaldılmasıdır. Qeyd edək ki, hazırkı marşrut üzrə yüklərin çatdırılma müddəti 6 həftədən artıqdır. Lakin mütəxəssislərin hesablamalarına görə, “Şimal-Cənub” nəqliyyat dəhlizi vasitəsilə yüklərin daşınma müddətinin 3 həftə olması gözlənilir.

Prezident İlham Əliyev “Şimal-Cənub” nəqliyyat dəhlizinin ölkəmiz üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq demişdir: "Keçən il “Şimal-Cənub” nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmiryolunun yenidənqurulması prosesinə başlamışıq. Bu il Bakı-Yalama dəmiryolunun yenidənqurulması davam etdiriləcək. Bakı-Astara dəmiryolunun yenidənqurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar “Şimal-Cənub” dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmiryolu var, ancaq sürət aşağıdır”.

Bu marşrutla yüklərin Şimali və Qərbi Avropa-Rusiya Federasiyası, daha sonra üç istiqamətdə - Qafqaz-Fars körfəzi, Mərkəzi Asiya-Fars körfəzi, Xəzər dənizi-İran İslam Respublikası-Fars körfəzi marşrutları ilə həyata keçirilməsi nəzərdə tutulur. Bu sxemdən də aydın görünür ki, həmin marşrutda Azərbaycan önəmli rol oynayır. Xüsusilə nəhəng Rusiya, Hindistan və İran bazarı üçün malların buradan daşınması əhəmiyyətlidir. Çünki bu, daha çox yükdaşınma deməkdir.

Mütəxəssislərin ilkin hesablamalarına görə, bu dəhliz fəaliyyətə başlayandan sonra Azərbaycan ərazisindən daşınan yüklərin birinci mərhələdə 3 milyon ton, ikinci mərhələdə 5-8 milyon ton, üçüncü mərhələdə isə 15 milyon ton olması gözlənilir.

Dəhlizin Azərbaycan ərazisindən keçən dəmiryolu hissəsinin uzunluğu 511 kilometrdir. Bakı-Yalama sahəsindəki dəmiryolu ikixətlidir, elektrikləşdirilib və avtomatik rabitə, həmçinin işarəvermə sistemi ilə tam təchiz olunub. Sahənin buraxılış qabiliyyəti sutkada 60 cüt qatardır. Bakı-Astara dəmiryolu sahəsinin Osmanlı stansiyasına qədər olan 140 kilometrlik hissəsi ikixətlidir, elektrikləşdirilib, avtomatik işarəvermə sistemi ilə təchiz olunub. Sahənin buraxılış qabiliyyəti sutkada 53 cüt qatardır. Bakı-Astara dəmiryol sahəsinin Osmanlı stansiyasından Astara stansiyasına qədər olan 188 kilometrlik hissəsi biryolludur, elektrikləşdirilməyib, lakin avtomatik işarəvermə sistemi ilə təchiz olunub. Sahənin buraxılış qabiliyyəti sutkada 20 cüt qatardır.

Dəmiryolunun Yalama-Bakı sahəsində 96 kilometr, Bakı-Astara sahəsində 60 kilometr dəmiryolu xətti əsaslı təmir olunmalı, 36 kilometr sahilbərkitmə işləri görülməlidir. Bu istiqamətdə 2001-ci ildən başlayaraq müəyyən işlər görülüb və hazırda davam etdirilir. Eyni zamanda, göstərilən sahədə stansiya yollarının sağlamlaşdırılması, elektrik təchizatının yaxşılaşdırılması, lokomotiv parkının genişləndirilməsi və s. kimi texniki tədbirlər bu istiqamətdə görülən işlər siyahısına daxildir.

Azərbaycan dəmiryolunun İran dəmir yolları şəbəkəsi ilə birləşdirilməsi üçün Astara (Azərbaycan) - Astara (İran) dəmiryolu xəttinin, Astaraçay üzərindən dəmiryolu körpüsünün inşası nəzərdə tutulur. Marşrutun işlək vəziyyətə gəlməsi üçün Azərbaycan tərəfi 8,4 kilometr dəmiryolu xəttinin çəkilməsini, hər biri 1050 metr olan 4 stansiya yolunun tikintisini aparacaq.

***Rüstəm KAMAL***

DƏNİZ
1 noyabr 2019-cu il № 81-84 (9363)

# “Risklərin idarəedilməsi” mövzusunda keçirilən hər təlimə ASCO-nun 40 əməkdaşı cəlb edilir








***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) əməkdaşları üçün “Risklərin idarəedilməsi” mövzusunda təlimlər keçirilir.***

Təlimlərin təşkili EY (Ernst&Young) şirkətinin Kiyevdə yerləşən Biznes Akademiyasına həvalə olunub. Bununla bağlı EY ilə ASCO arasında müqavilə imzalanıb. Müqaviləyə əsasən, şirkət ASCO-nun rəhbər şəxsləri üçün üç istiqamətdə proqram hazırlayıb. Bunlar “Risk-menecment”, “Risklərin idarəedilməsi, biznes qərarlarında risklərin qiymətləndirilməsi”, “Effektiv kommunikasiya” təlimidir.

Artıq ilk iki təlim başa çatıb, sonuncu təlimin isə noyabrın 21-22-də keçirilməsi nəzərdə tutulur. Təlimləri başa vuranlara EY tərəfindən sertifikatlar verilir. Hər təlimdə 40 nəfər əməkdaşın iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, “Risklərin idarə edilməsi, biznes qərarlarında risklərin qiymətləndirilməsi” üzrə təlimlərin təşkili ASCO-nun sədri Rauf Vəliyevin əmrinə əsasən Gəmiçiliyin 2019-2023-cü illəri əhatə edən 5 illik strateji Tədbirlər Planında əksini tapıb.

# Dəhliz vasitəsilə daşınmış yüklərin 5 milyon 383,9 min tonunu tranzit yüklər təşkil edir



***Bu ilin yanvar-avqust aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 34 milyon 876,6 min ton, yük dövriyyəsi isə 7 milyard 345,2 milyon ton-kilometr olub.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 22 milyon 956,7 min tonu və ya 65,8 faizi avtomobil nəqliyyatı, 8 milyon 517,9 min tonu və ya 24,4 faizi dəmir yolu nəqliyyatı, 3 milyon 402 min tonu və ya 9,8 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 15,4 faizini və ya 5 milyon 383,9 min tonunu tranzit yüklər təşkil edib.

# Qəzanın baş vermə səbəbləri hələ tam müəyyənləşməyib



***Türkiyənin Balıkesir şəhərinin Ayvalık rayonu sahillərinə yaxın bölgədə içərisində qanunsuz miqrantların olduğu qayıq batıb.***

Qəza nəticəsində bir uşağın öldüyü, daha bir azyaşlının - iki aylıq körpənin itkin düşdüyü bildirilir. Hadisə yerindən 33 nəfər xilas edilib.

Qəzanın baş vermə səbəbləri hələ tam müəyyənləşməyib.

Qayığın batdığı əraziyə Türkiyə Sahil Mühafizə Xidmətinin dalğıcları cəlb olunub.

# Poçt markaları – İnformasiya daşıyıcıları

***İnternet həyatımıza daxil olduqdan sonra filatelistlərin sıx cərgələri sürətlə seyrəlməyə başladı. Bu, gözlənilən idi. Axı bir çox filatelistlər kolleksiyalarını məhz məktublaşmaqla zənginləşdirirdilər. Hobbilərindən xəbərdar olan qohum-qonşular, əməkdaş və tanışlar da başqa ölkə və şəhərlərdə yaşayan əzizlərinin məktubları hesabına onların kolleksiyalarına töhfələr verirdilər...***

*Yaxşı kolleksiya əslində özünəməxsus ensiklopediyadır, harada ki, hər şey var: əlamətdar günləri ilə ölkənin tarixi, coğrafiyası, təbii sərvətləri, mədəniyyəti və əlbəttə ki, öz işləri ilə ölkəni şərəfləndirən insanları.*

***Ernst Krenkel,***
***Məşhur Arktika tədqiqatçısı, sovet dönəmində Ümumittifaq filateliya cəmiyyətinin banisi***

Lakin yaxşı ki, zamanla hər şey dəyişir. Bugün bütün dünyada filateliyaya yenidən marağın artdığı izlənilir. Onun maarifləndirici xüsusiyyətini nəzərə alsaq, bu fakt sevindirməyə bilməz. Əsl kolleksiyaçılar sadə yığıcılardan onunla fərqlənirlər ki, topladıqları markalar haqqında hər şeyi bilirlər: markada kimin və ya nəyin təsvir olunduğunu, şəxs və ya obyektlə bağlı bütün məlumat və hadisələri, o cümlədən markanın hansı tədbir və ya hadisə ilə əlaqədar olaraq buraxıldığını. Bu səbəbdən markalar hazırda bilavasitə təyinatları – poçt xidmətlərinin ödənildiyini bildirən nişan olmaqla bərabər, onu dövriyyəyə buraxan suveren ölkənin təbliğatı ilə gündəmdədir. Markanın “bambalaca boyu”na baxmayaraq, təbliğat və təşviqatda oynadığı böyük rola görədir ki, bədnam qonşularımızın dəstəyi ilə qondarma “Artsax” qurumu poçt markaları buraxmaqla dünya filatelistlərinin kolleksiyalarına yol tapmağa və beləliklə, hətta Ermənistanın özünün tanımadığı oyuncaq “Artsax”ı yaddaşlara “müstəqil dövlət” kimi həkk etməyə çalışır.

Mən əslində dəniz filateliyası haqqında məqalə yazmağa hazırlaşırdım. Bu barədə az sonra söz açacağam. İnternetdə vaxtı ilə paytaxtımızda böyük uğurla keçirilmiş “Morfil-78” filateliya sərgisinə həsr olunmuş birinci gün zərfinin (xüsusi zərf, üzərində dövriyyəyə çıxarıldığı ilk günün tarixi göstərilməklə xatirə basması və bu basmanın vurulduğu poçt markası və ya marka bloku olur) yüksək keyfiyyətli təsvirini axtarırdım ki, “Марки Арцаха – визитные карточки этой замечательной страны» adlı məqaləyə rast gəldim. Məqaləni oxudum. Yazıdan bir sitatı olduğu kimi vermək istəyirəm. Erməni müəllif yazır: “Hər şeydən başqa, Artsax markaları həm də mühüm təbliğatçı rolunu oynayır. Onların sayəsində bütün planetdə olan insanlar Dağlıq Qarabağ Respublikası (Artsax Respublikası) kimi bir dövlətin mövcudluğundan xəbər tuturlar. Beləcə onlarda maraq yaranır: bu nə ölkədir belə, nə xalqdır? İnsanlar bu barədə əlavə informasiya almağa, yeni Artsax markaları əldə etməyə çalışırlar. Bunun ardınca bu elə məhəbbət və hörmət yaranır”. Nə qədər hiddətləndirsə də, qeyd etməliyəm ki, məqalənin digər bir abzasında müəllif markaların Azərbaycanla informasiya və ideoloji qarşıdurmada çox mühüm xidmət göstərə biləcəyi barədə fikrini gizlətmədən, açıq-aşkar yazır. Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur!

Marka buraxılışı hər bir dövlətin nüfuz göstəricisi olub, ölkənin müstəqil statusunu və özəlliklərini vurğulayır, Dövlət bayrağı, gerbi və himni kimi ölkənin rəmzi sayılır. Kolleksiyalar əsasında ölkə xalqlarının adət-ənənələrini, məişətini, mətbəxini öyrənmək olur.




Ölkəmizi beynəlxalq filateliya sərgilərində Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən „Azərmarka“ Məhdud Məsuliyyətli Cəmiyyət təmsil edir. „Azərmarka“nın istedadlı rəssam və dizaynerlərdən ibarət yeni kollektivinin son illər ərzində hazırlayaraq filatelistlərin mühakiməsinə təqdim etdiyi nəfis tərtibatlı markalar şirkətin öz işinin öhdəsindən məharətlə gəldiyini göstərir. Bunu mən „Azərmarka“ ilə birlikdə gördüyümüz işin nəticəsinə görə, həm də onların işıq üzü görən digər işləri əsasında əminliklə deyirəm. Cəmiyyət gözoxşayan dizayn ilə Azərbaycanımızın tarixinə, təbiətinə, mədəniyyətinə və xalqımızın milli adət-ənənələrinə, o cümlədən ölkədə və xalqımızın həyatında baş verən bütün əlamətdar hadisə və tarixlərə – Milli Ordumuzun iftixar hissi yaşadan Aprel döyüşlərindəki qətiyyətli qələbəsinə, görkəmli elm-mədəniyyət xadimlərimizin yubileylərinə, ölkədə keçirilən mötəbər idman yarışlarına, beynəlxalq səviyyəli tədbirlərə, gerçəkləşən qlobal əhəmiyyətli layihələrə həsr edilmiş poçt markaları, habelə birinci gün zərfləri, xatirə ştempellərinin basmalarını, kartmaksimum və açıqcalar kimi filatelistik və kolleksiya nümunələri də işləyib hazırlayır. Bu halda sual yarana bilər ki, əgər „Azərmarka“ belə yaxşı işləyirsə, qondarma bir qurum öz poçt markaları ilə nə edə bilər? Gəlin yaddan çıxarmayaq ki, söhbət düşünülmüş, məqsədyönlü təbliğatdan gedir və bu halda „Yel qayadan nə aparar?“ deyə, sakitcə oturub gözləmək olmaz. Düşmənə cavab „El gücü – sel gücü“ düşüncəsi ilə verilməlidir. Yəni, ən azından xaricdə kimin dostu-tanışı, qohum-əqrəbası varsa, heç olmasa ildə 2-3 dəfə internetlə deyil, poçt vasitəsi ilə məktublaşmalı və bu zaman zərflərin üzərinə doğma diyarımız Qarabağın abidələrinə, flora-faunasına, görkəmli şəxslərinə həsr edilmiş markalardan yapışdırmalıdır. Bu, ən azından əcnəbi poçt işçilərinə, ən çoxu isə sözügedən qohum-əqrəbanın fəallığı yüksək olarsa, onların çevrəsindəki filatelistlərə və ya sadəcə maraqlanan birisinə markalar vasitəsi ilə Azərbaycanın dilbər guşəsi ilə tanış olmağa və onun haqqında məlumatlanmağa imkan verər. Kitabsevərlər mənimlə razılaşdıqları üçün qətiyyətlə deyə bilərəm ki, elektron kitab çap olunmuş kitabı necə əvəz edə bilmirsə, əl ilə yazılmış məktub da elektron məktubu əvəz edə bilmir. Özünüz yoxlayıb, əmin ola bilərsiniz: birincinin oxunuşundan alacağınız zövq həmişə (!) elektron məktubu oxumaqdan aldığınız zövqün fövqündə olacaq.







Markaların təbliğatçılıq funksiyasından effektiv istifadə etməklə, onları ölkəmizin tərənnüm vasitələrindən birinə çevirmək olar. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin timsalında bu istiqamətdə görülən işlərdən söz açmaq yerinə düşər. Əvvəlcə tarixə nəzər salaq. Filateliyanın məşhur olduğu keçən əsrin 70-ci illərində Xəzər Dəniz Gəmiçiliyi filatelistlərin səmərəli fəaliyyəti üçün iki klub yaratmış, 1978-ci il oktyabrın 7-də dəniz mövzusuna həsr edilmiş II Ümumittifaq filateliya sərgisi – „Morfil-78“-in Bakıda müvəffəqiyyətlə keçirilməsində xüsusi əməyi olmuşdur. Müstəqillik illərində də Gəmiçilik ənənələrinə sadiq qalaraq 140, 145 və 150 illik yubileylərində klyasserlərdə (markaların saxlanılması üçün nəzərdə tutulmuş şəffaf ciblikli albom) markalar toplusu çap etdirmiş, Ümummilli Liderimiz Heydər Əliyev kimi müdrik, uzaqgörən və qətiyyətli dövlət başçısı sayəsində qoruyub saxlamağa müvəffəq olduğu dəniz nəqliyyatı donanmasının həmin dövrdə necə inkişaf etdiyini göstərmişdi. Həmin illərdə strateji obyekt olaraq milli donanmanın qorunub saxlanılması çox çətin idi və bu çətinliklər yalnız Ulu Öndərin sayəsində dəf edilmişdi. Təkcə bir misal yetər ki, bunun nə qədər çətin olduğunu təsəvvür edəsiniz: keçən əsrin 90-cı illərində Sovet İttifaqında fəaliyyət göstərən 16 ticarət gəmiçiliyindən əsrin sonuna yalnız 4 gəmiçilik (!!!) qalmışdı. Bu dördlükdən də ancaq Xəzər Dəniz Gəmiçiliyi Ulu Öndərin köməkliyi ilə öz donanmasını tam qoruyub saxlaya və hətta, gəmilərinin sayını artıra bilmiş, Beynəlxalq Dəniz Təşkilatına üzv olmuş, yüksəkixtisaslı dənizçi kadrların hazırlanması üçün Dəniz Akademiyasını yarada bilmişdi.

Ulu Öndərimizin sarsılmaz iradəsi ilə həyata vəsiqə qazanan və sonralar layiqli varisi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən çox məharətlə davam etdirilən yeni neft strategiyası ölkəmizin Xəzər Dəniz Neft Donanmasının da qarşısında geniş perspektivlər açmış, ona öz maddi-texniki bazasını günün tələblərinə uyğunlaşdırmağa və xarici neft şirkətləri ilə əməkdaşlıq etməyə şərait yaratmışdı.

2013-cü il 22 oktyabrda ölkə rəhbərimiz İlham Əliyevin imzaladığı Sərəncama əsasən respublikada mövcud olan iki böyük donanma – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanması birləşdirilərək yenidən təşkil olundu. Bu, respublikamızın mühüm tranzit və logistika mərkəzinə çevrilməsi üçün dövlət başçımızın qətiyyətlə həyata keçirdiyi məqsədyönlü tədbirlərdən biri olub, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə yeni qurum olaraq fəaliyyətini müasir çağırışlara müvafiq surətdə qurmağa və məqsədyönlülüklə aparılan tədbirlər sayəsində getdikcə artan yerli və beynəlxalq daşımalarda rəqabətədavamlılığını qoruyub saxlamağa imkan yaratdı.

2018-ci ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 yaşına qədəm qoydu. Qocaman Gəmiçilik bu əlamətdar tarixi əmək veteranlarının, işgüzar tərəfdaşlarının, say-seçmə gənc kadrlarının iştirakı ilə qeyd edib, köklü islahatlar aparmaqla səmərələşdirdiyi fəaliyyətinin beşillik dövründə qazandığı nailiyyətlərin sevincini onlarla bölüşdü. Lakin məqalə markalara və onların informasiya daşıyıcıları kimi roluna həsr olunduğu üçün əsas mətləbə keçirəm. Yubiley tədbirində iştirak edən xarici qonaqlara Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ölkəmizlə bərabər keçdiyi tarixi mərhələlərdən bəhs edən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi-160 il“ adlı markalı kitab təqdim olundu. Azərbaycanda gəmiçiliyin qədimliyi, neftin sənaye üsulu ilə hasilatının dənizlə yük daşımalarının artmasına, dəniz nəqliyyatının təkmilləşdirilməsinə, habelə gəmiçilik şirkətlərinin, gəmi təmiri bazasının və ilk dəniz təhsili ocağının yaradılmasına göstərdiyi təsir, donanmanın milliləşdirilməsi, Böyük Vətən müharibəsi illərində dənizçilərimizin fədakarlığı, müharibədən sonrakı dövrdə dənizdə neft yataqlarının kəşfi ilə bağlı ixtisaslaşdırılmış neft donanmasının yaradılması və inkişafı, Bakı–Krasnovodsk (Türkmənbaşı) gəmi-bərə keçidinin və Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakı filalının açılışı, Sovet İttifaqında dəniz gəmi-bərə keçidlərinin layihələndirilməsində əvəzsiz rolu olan Xəzər Dəniz Layihə və Elmi-Tədqiqat İnstitutu, gəmilərimizin üzmə coğrafiyasının genişləndirilməsi, keçən əsrin 70-80-ci illərində ticarət və neft donanmalarımızın yeniləndirilməsi, müstəqillik illərində qorunub saxlanılması və inkişaf etdirilməsi, nəhayət, 2013-cü ildə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin yaradılması barədə söz açan və özündə foto şəkillərlə bərabər, markalar da ehtiva edən bu kitabı E.Krenkelin fikrinə istinadən Azərbaycanın dəniz nəqliyyatının ensiklopediyası da adlandırmaq olar.

Qeyd etmək xoşdur ki, bu kitab hazırlanarkən 2020-ci ildə faşizm üzərində Qələbənin 75 illiyinin qeyd olunacağı nəzərə alınaraq, Ulu Öndərimizin “Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur... Azərbaycan xalqının tarixi xidmətlərini və böyük rolunu olduğu kimi bütün tamlığı ilə dünya ictimaiyyətinə çatdırmaq respublika ictimaiyyətinin, mətbuatının və ziyalılarının vətəndaşlıq borcudur” və ölkə rəhbərimiz İlham Əliyevin “Sövet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik” deyimlərinə əsaslanaraq, Azərbaycan xalqının, o cümlədən dənizçilərimizin bu ölüm-dirim mübarizəsində fədakar roluna geniş yer verilib.

Cari ilin 11 oktyabrında dövlət başçımız İlham Əliyevin Aşqabadda xalqımıza qürur yaşadan çıxışı bizim düz yolda olduğumuzu göstərdi: ölkənin qüdrətini artırmaqla bərabər, onun təbliği də vacibdir. Axı həqiqətən Azərbaycan nefti olmasaydı, SSRİ məğlubedilməz görünən faşist ordusuna qalib gələ bilərdimi? Bu suala Bakı Media Mərkəzi ilə Fransanın sənədli film istehsalı sahəsində tanınmış “Clarke Costelle & Co” (CC&C) prodakşn şirkətinin birlikdə ərsəyə gətirdikləri və dünya ekranlarında uğurla nümayiş etdirilən “Hədəf – Bakı. Hitler neft uğrunda müharibəni necə uduzdu?” sənədli filmi birmənalı cavab verir. Film İkinci Dünya müharibəsinin tarixinə tamamilə yeni baxış bucağından – neft uğrunda savaş prizmasından baxır. Baş prodüsseri Arzu Əliyevanın, baş məsləhətçisi isə görkəmli elm xadimi Çapay Sultanovun olduğu bu film Azərbaycanın qəhrəmanlıq tarixini yaşatmaq, faşizm üzərində Qələbənin əldə olunmasında xalqımızın əvəzedilməz rolunu dünya ictimaiyyətinə çatdırmaq baxımından çox böyük əhəmiyyət kəsb edir. Ssenarinin əsasında Çapay Sultanovun “Tarix felin lazım formasını sevmir, amma yenə də…” kitabı durur. Bu kitabın dünya dillərinə tərcümə edilməsi qürurverici fakt olub, Azərbaycanımızın, xalqımızın maraqlarının müdafiəsinin hər bir vətəndaşın ümdə vəzifə kimi qəbul etməsini təsdiqləyir.

***Sevda ABDULLAYEVA,***
***İctimaiyyətlə əlaqələr departamentinin aparıcı mütəxəssisi***

## "Yaşamaq şansını əldən verməyin"






***Azərbaycan Dövlət Dəniz Akademiyasında Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi ilə birgə əməkdaşlıq çərçivəsində narkomaniyaya qarşı "Yaşamaq şansını əldən verməyin" adlı tədbir keçirilib.***

ADDA-nın tədris və tərbiyə işləri üzrə prorektoru, professor Zahid Şərifov müasir dövrümüzdə narkomaniyanın bütün dünyada kütləvi bəlaya çevrilməsi səbəbindən maarifləndirici görüşlərin vacibliyini vurğulayıb. Təəssüflə qeyd edib ki, ölkəmizdə də bu bəlaya düçar olanlar var. Bu ölümcül vərdişin qarşısını almaq məqsədilə gənclər, əsasən də tələbələr arasında izahat işinin aparılması müstəsna əhəmiyyət daşıyır.

Tədbirdə Narkoloji Dispanserin və Səbail rayonu Polis İdarəsinin əməkdaşları narkomaniyaya qarşı maarifləndirici mühazirələrlə çıxış ediblər. Sonda Azərbaycan Dövlət Teatr Muzeyi tərəfindən hazırlanmış videomaterial nümayiş etdirilib.

## Buzlaqdan 315 milyard ton ağırlığında aysberq ayrılıb

***BBC-nin məlumatına görə, Şərqi Antarktidada Eymeri şelf buzlağından son 50 il ərzində ən böyük aysberq ayrılıb.***




D28 aysberqi sahəsinə görə (1,6 min kvadrat kilometr) yalnız Şotlandiyanın Skay adasından geri qalır.

Təqribən 201 metr qalınlıqda olan bu aysberqi indi diqqətlə izləyəcəklər. Çünki belə nəhəng buz massivi okeanda üzən gəmilərə potensial təhlükə ola bilər.

Eymeri buzlağından sonuncu dəfə belə böyüklükdə aysberq 1960-cı illərdə qopmuşdu. Düzdür həmin aysberq də nəhəng idi – sahəsi 9 min kvadrat kilometrə bərabər idi.

Eymeri Antarktikada böyüklüyünə görə üçüncü buz şelfidir. Onun sahəsi 40 min kvadrat kilometrə yaxındır.

"Bu, uzun müşahidə illərindən sonra maraqlı hadisədir. Biz bilirdik ki, nəticədə bu, baş verəcək. Lakin biz nə qədər ayıq-sayıq olsaq da, bu hadisə bizim təxmin etdiyimiz yerdə baş vermədi", - deyə ABŞ-ın Skripps Elmi-Tədqiqat İnstitutundan olan professor Helen Friker BBC-yə bildirib.

Alimlərin fikrincə, aysberq bir qədər şərqə, "Laxlayan diş" adlı şelfin yerləşdiyi tərəfə qopmalı idi. Alimlərin hesablamalarına görə, "Laxlayan diş" 2010-2015-ci illər arasında olan dövrdə ayrılmalı idi. Lakin o, əvvəlki kimi yerində durub. Helen Friker qeyd edib ki, buzlaqdan qopan aysberqin əmələ gəlməsinin qlobal istiləşmə ilə heç bir əlaqəsi yoxdur.

1990-cı ildən aparılan peyk çəkilişləri göstərir ki, Eymeri şelf buzlağı yay aylarında səthinin fəal şəkildə əriməsinə baxmayaraq, taraz vəziyyətdə qalmaqdadır.

"Antarktidada bir çox hadisələr təşviş doğurur, lakin konkret olaraq, bu şelf üçün həyəcanlanmağa əsas yoxdur", - deyə professor Friker vurğulayıb.

D28 aysberqi hesablamalara görə 210 metr qalınlığa və təqribən 315 milyard ton ağırlığa bərabərdir.

Lakin o, A68 aysberqi ilə müqayisədə o qədər də böyük deyil. Antarktikanın əks tərəfində yerləşən Larsen buzlağından 2017-ci ildə aralanan aysberqin hazırda sahəsi D28-ə nisbətən üç dəfədən də böyükdür.

Külək və axın D28 aysberqini qərbə aparacaq. Bu aysberqin hissələrə parçalanması və tamamilə əriməsi üçün bir neçə il tələb olunur.

## Nəhəng üzən stansiya 50 hektarlıq süni gölün 17 hektarını tutur

***"AFP" agentliyinin yaydığı məlumata görə, Avropada nəhəng üzən günəş elektrik stansiyasından ilk cərəyan nəql edilib.***



Agentliyin xəbərində qeyd olunur ki, Fransanın Pyolenk şəhərinin (Voklüz departamenti) yaxınlığında yerləşən bu stansiya 50 hektarlıq süni gölün 17 hektarını tutur. Burada günəş enerjisi ilə işləyən 47 min batareya quraşdırılıb. İldə 17 meqavat enerji istehsal edəcək bu stansiya 10 min sakinin yaşadığı 4,7 min mənzili elektriklə təmin edəcək. Bu elektrik enerjisi əhaliyə ekoloji təmiz məhsul qarantiyası ilə satılacaq.

Qeyd olunur ki, Fransada olan bu obyekt yalnız Çində yerləşən günəş elektrik stansiyasından geri qalır. Belə ki, çinlilərin üzən günəş elektrik stansiyası 86 hektar ərazini əhatə edir ki, bu da 120 futbol meydançasının sahəsinə bərabərdir.

## Yaponiya özünümüdafiə qüvvələri yalnız qanun çərçivəsində vəziyyəti araşdırmaq məqsədilə Yaxın Şərqə göndəriləcək

***Yaponiya özünümüdafiə qüvvələrinin informasiya toplamaq və monitorinq aparmaq məqsədilə Yaxın Şərqə göndərilməsi imkanlarını araşdırır.***



Yaponiya hökumətindəki mənbələrin verdiyi xəbərə görə, bu barədə qərar Milli Təhlükəsizlik Şurasının oktyabrın 18-də keçirilən iclasında təsdiq olunub.

Bildirilir ki, bu zaman diqqət hərbi dəniz qüvvələrinin esmineslərinin və patrul təyyarələrinin regiona göndərilməsinə yönələcək.

Xatırladaq ki, ABŞ hökuməti İran ətrafında artan gərginliklə əlaqədar Hörmüz boğazında gəmiçiliyin təhlükəsizliyini təmin etmək məqsədilə beynəlxalq koalisiya yaradır.

Lakin Yaponiya hökuməti İranla uzunmüddətli dostluq əlaqələrini nəzərə alaraq, həmin qüvvələri koalisiyadan kənar göndərməyi planlaşdırır.

Qeyd edilir ki, özünümüdafiə qüvvələri yalnız qanun çərçivəsində vəziyyəti araşdırmaq məqsədilə regiona göndəriləcək.

Xarici İşlər Nazirliyinin məlumatına görə, həmin addım həm də yapon gəmilərinin təhlükəsizliyinin təmin olunmasına xidmət edəcək.

*Vüqar Ağayev*

## "USD Porter" gəmisi Batumi limanına yan alıb



***ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus "USD Porter" gəmisi Batumi limanına yan alıb.***

Bununla əlaqədar ABŞ-ın Gürcüstandakı səfirliyi bəyanat yayıb.

Bəyanatda deyilir ki, hərbi gəminin Gürcüstana gətirilməsi regionda təhlükəsizliyə və sabitliyin qorunmasına xidmət edir. Bu, eyni zamanda, Gürcüstan ilə Birləşmiş Ştatlar arasında hərbi əməkdaşlığın və tərəfdaşlığın inkişafına dəstək məqsədi daşıyır.

Məlumat üçün qeyd edək ki, ABŞ hərbi gəmisi artıq ikinci dəfədir Gürcüstan limanlarına gəlir.

## İlanbaş balıqlar dörd gün susuz yaşayır

***ABŞ-ın Corciya ştatının Vəhşi Təbiətə Nəzarət Xidməti əhaliyə xəbərdarlıq edib ki, ştatın ərazisində ilanbaş adlanan balıqlar peyda olub. Onlara təsadüf edəndə, dərhal öldürmək, dondurmaq və tapıntı barədə yerli hakimiyyət orqanlarını məlumatlandırmaq lazımdır.***



BBC xəbər verir ki, ilanbaşların məskəni Çindən Rusiyaya qədər uzanan Uzaq Şərqdir. Bu balıqlar Amur çayında, Koreya yarımadasının sututarlarında yaşayır.

İlanbaşlar əsl qarınquludur. Onlar quruda nəfəs alır, ilan kimi sürünür, dörd gün susuz yaşayır.

Bu balığa ABŞ-ın digər ştatlarında da təsadüf edilib. Bəziləri bu balıqları tanka bənzədirlər. Belə ki, onlar yollarına çıxan hər şeyi həzmi-rabedən keçirir. İlanbaşların nəhəng çənələri, böyük dişləri var. Sürünərək bir göldən digərinə, yaxud çaya keçən bu balıqlar özlərini suda da, quruda da eyni dərəcədə yaxşı hiss edir,

Əslində, bu balıqlar ABŞ ərazisində 20-30 il əvvəl peyda olub, lakin son vaxtlar çoxalaraq daha geniş əraziləri tuturlar.

Ehtimala görə, bəzi amerikalılar ilanbaş balıqları akvariumlarda saxlayıblar, lakin yırtıcı olduqlarını görüb, sututarlara, yaxud kanalizasiyaya buraxıblar. Burada onlar yerli şəraitə uyğunlaşaraq çoxalıb.

Bu balıqlar xırda heyvanlar, digər balıqlar, bəzən molyusklar, hətta sürünənlərlə qidalanır. Onlar yerli faunaya ciddi ziyan vura bilər.

Corciya ştatında yerli sakin göldən balıq tuturmuş. Onun tilovuna tanış olmayan balıq keçib. Balığın şəklini çəkib və yenidən gölə buraxıb. Lakin balığın fərqli olması onu narahat edib. O, balığın şəklini yerli bioloqlara göstərib. Onlar ilanbaşı dərhal tanıyıblar və gölü yad balıqdan təmizləmək üçün təxirəsalınmaz tədbirlər görülüb.

Bioloqlar uzunluğu 1,5 metrə çatan ilanbaş balıq və onun bir neçə balasını ovlaya biliblər. Balıq quruda asanlıqla süründüyü üçün alimlər qonşuluqdakı kiçik çayları, sututarları və bataqlıq əraziləri diqqətlə tədqiq edirlər, lakin hələlik ilanbaşın izinə rast gəlməyiblər.

## Dəniz səviyyəsi hər il 3,6 millimetr artır

### İstiləşmə, oksidləşmə və oksigen itkisi dəniz sakinlərini məhv edir

***Tarixən canlı varlıqların nəslinin kəsilməsi üç amil səbəbindən baş verib: istiləşmə, oksidləşmə və oksigen itkisi. Bu proseslərin hamısı hazırda dünya okeanında müşahidə olunur. İqlim dəyişmələrinin nəticələrindən xeyli danışılmasına baxmayaraq, okeanlar və kriosfer barədə yeni məruzə qorxunc xəbərdarlıq kimi səslənir. Qeyd edək ki, məruzə üzərində 36 ölkədən 100-dən çox alim işləyib.***

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun (İDHEQ) okeanlar və kriosfer barədə Xüsusi məruzəsinin müəllifləri dünya liderlərini təxirəsalınmaz addımlar atmağa çağırıblar. Məruzədə deyilir ki, milyonlarla insanın həyatı təhlükədədir. Yüksək dağlıq rayonlarda yaşayan 670 milyon əhalinin və sahilyanı ovalıq zonalarda yaşayan 680 milyon əhalinin rifahı birbaşa okeanların və planetimizin donmuş hissəsinin - kriosferin sağlamlığından asılıdır. Dörd milyon əhali daimi əsasda Arktika zonasında, 65 milyon əhali inkişaf etməkdə olan kiçik ada dövlətlərində yaşayır.

Parnik qazları tullantıları bugünkü səviyyədə saxlanılsa, planetin sürətlə istiləşməsi davam edəcək, buzlaqların, qarların və əbədi donuşluğun ölçüləri kiçiləcək. Sürüşmələr, qar və daş uçqunları, daşqınlar getdikcə daha tez-tez təkrarlanacaq, dağlıq rayonların həyatı daim yaşamaq uğrunda mübarizəyə çevriləcək.



Sahilyanı zonalarda yaşayanları ciddi sınaqlar gözləyir. Ötən yüz ildə dənizin səviyyəsi 15 santimetr artıb, bu gün bu proses iki dəfə sürətlə davam edir, dəniz səviyyəsi hər il 3,6 millimetr artır. Sonralar sürət daha da artacaq: qütb və yüksək dağlıq regionlarda buzlaqların əriməsi buna şərait yaradacaq.

Alimlər xəbərdarlıq edirlər ki, dəniz səviyyəsinin yüksəlməsi tez-tez daşqınlara və dağıdıcı fırtınalara gətirib çıxaracaq. Yüz ildə bir dəfə baş verən çox güclü təbii fəlakətlər gələcəkdə hər il müşahidə olunacaq.

İDHEQ-in işçi qrupunun həmsədri Valeri Masson-Delmot deyib: "Qrenlandiya və Antarktikadakı buz sipərlərindən su axınının artması, üstəlik, buzlaqlardan qar suyunun daxil olması və daha isti dəniz sularının həcminin çoxalması səbəbindən dəniz səviyyəsinin artması sürəti son onilliklər ərzində güclənib".

Məruzə müəllifləri bildirirlər ki, okeanlarda və kriosferdə iqlim dəyişmələri ilə bağlı səbəblərə görə bəzi ada dövlətləri, çox güman, tamamilə boşalacaq.

İstiləşmə, oksidləşmə və oksigen itkisi dəniz ekosistemləri üçün əsas təhlükədir. İstiləşmə zamanı su təbəqələri pis qarışır. Bu isə oksigenin və bəsləyici maddələrin daxil olmasının qarşısını alır. Proqnozlara görə, qlobal istiləşmə 2 °C səviyyəsində qalsa, əsrin sonuna qədər okean son əlli ildəkindən 2-4 dəfə çox, ən xoşagəlməz halda 5-7 dəfə çox istilik udacaq.

Okean 1980-ci ildən insan fəaliyyətinin səbəb olduğu CO2 emissiyalarının təqribən üçdəiki hissəsini udub. Bu, okeanların oksidləşməsinə gətirib çıxarıb. İnsan təbiətə ziyan vurmağı dayandırmasa, vəziyyət sürətlə pisləşəcək.

Balıqçılıqdan asılı olan sahilyanı zolağın sakinləri dəniz ekosistemlərinin dəyişməsi nəticəsində resursların tükənməsi və ərzaq təminatı sahəsində problemlərlə üzləşə bilərlər.

Dəyişikliklər artıq indinin özündə sahilyanı zonalarda, açıq okeanda və dənizin dibində dəniz sakinlərinin populyasiyasına təsir göstərir. Bu, insan üçün yeni itkilər deməkdir: məsələn, balıqçılıqdan asılı olan sahilyanı zolağın sakinləri resursların tükənməsi və ərzaq təminatı sahəsində problemlərlə üzləşəcəklər.

Məruzə müəllifləri belə qənaətə gəliblər ki, parnik qazları tullantılarının xeyli azalması, ekosistemlərin müdafiəsi və bərpası, habelə təbiət resurslarının düzgün idarə edilməsi okeanları və kriosferi qoruyub saxlamağa və vəziyyətin daha da gərginləşməsinin qarşısını ala bilər.

Məruzə üzərində işləyən alimlər qrupunun rəhbərlərindən biri – Debra Roberts vurğulayıb: "Yalnız cəmiyyət həyatının bütün sahələrində, o cümlədən energetikada, torpaqdan istifadədə, ekosistemlərdə, şəhər təsərrüfatında və infrastrukturunda, habelə sənayedə görünməmiş keçid tədbirləri həyata keçirməklə, qlobal istiləşməni sənayeləşmədən əvvəlki göstəricilərlə müqayisədə 2 °C-dən xeyli aşağı səviyyədə saxlamaq mümkündür. Onun sözlərinə görə, Paris İqlim Sazişində nəzərdə tutulan tədbirlər okeanları və kriosferi, nəhayət, Yer kürəsində həyatı qoruyub saxlamağa imkan verəcək.

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun okeanlar və kriosfer barədə Xüsusi məruzəsi dəyişən iqlim şəraitində əsas elmi sənəddir. BMT ümid edir ki, dünya liderləri düzgün qərar qəbul edəcəklər. Siyasətçilərin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının dekabrda Çilidə keçiriləcək konfransında yeni məlumatları müzakirə etmək imkanı olacaq.

## YARIZARAFAT, YARIGERÇƏK

**Arxayın olun. Bu gün sizi satanların hamısını bir gün daha ucuz məhz, sizə satacaqlar.**

**Pul çox şeyə qadir olsa da, indiyədək pis adamı yaxşılığa doğru dəyişdirdiyini görməmişəm.**

**Kimin tərəfində olursan-ol. Amma qərarı tərəfsiz ver.**

**Bu dünyada kimsə ümidsiz deyil. Ehtiyac içində olanlar bir gün yaxşı yaşayacaqlarına, yaxşı yaşayanlar daha yaxşı yaşayacaqlarına ümid edirlər.**

**Yalanlara qulaq asmayan ən azı, vaxt udur.**

**Hər cür yalan danışanlar ifadə azadlığının yoxluğundan niyə gileylənirlər?**

**"Kişi ağlamaz" o demək deyil ki, xanımları ağlar günə qoyaq.**

**Yaxşı yaşamaq yaxşı şeydir. Bir şərtlə ki, yaxşı keyfiyyətlərini unutmayasan.**

**Mən az qoyub çox götürənləri də başa düşə bilərəm. Bəs heç nə qoymayıb, hər şeyi götürmək istəyənləri necə başa düşüm?**

**Dünyada bir qeyri-təbii fəlakət tanıyıram:yalan. Qalanları onun törəmələridir.**

**Bilsəm ki, Cəhənnəmdə yalan danışmırlar, Cəhənnəmə böyük həvəslə gedərəm.**

**Ağladanlar və ağlayanlar olan yerdə sevinənlər də olur. Ağlatdıqlarının göz yaşlarına sevinənlər.**

**Bəziləri insan kimi yaşamaqdan başqa, hər cür yaşamağı bacarırlar.**

**Özlərini güclü hesab edənlərin əksəriyyətinin kiçik yaxşılıq etməyə belə gücü niyə çatmasın?**

**Yaxşı xəbər eşitmək üçün qulağı hansı tərəfə tutmaq lazımdır?**

**İnamı olan çarəsiz deyil.**

**Əlinizdə heç nə olmayanda da problemləri evə aparmayın.**

**Adam var, adamın üzünü qara edir, adam var gününü.**

**Bəzən süfrəsində hər şey olanın da "qab"ında heç nə olmur.**

**Cansıxıcı söhbətlərə qədər elə bilirdim ki, məni heç kim və heç nə sıxa bilməz.**

**Uduzacağımızı bilə-bilə bizə təklif olunan oyunları niyə oynayırıq?**

**Axmaqlar qəddar olmaya bilər. Bir gün cavab verəcəklərini bilmədikləri üçün qəddarların hamısı axmaqdır.**

**Adam var, nə danışmağı, nə də susmağı bacarır.**

**Səhvlər Doğum nöqtəsindən Ölüm nöqtəsinə gedən yolu və vaxtı qısaldır.**

**"Baxaq görək" düşüncəsi ilə vaxt itirəndə, baxıb görürük ki, biz baxdığımız vaxtlarda başqaları çox şey ediblər.**

**Özlərində düz heç nə tapa bilməyənlərin sizdə səhv axtaracaqlarına təəccüblə baxmayın.**

**Papaq ən azı, insanın başına soyuq dəyməsinin qarşısını alır.**

**Ağlı başında olmayanın papağının başında olmasından nə fayda?**

**İnsanları fəlakətə adətən pulsuz aparırlar.**

**Mən axmaqların müdriklərdən yaxşı geyindiklərini çox görmüşəm. Yaxşı danışdıqlarını isə heç vaxt eşitməmişəm.**

**Çox adam mübarizəsiz qalib olmaq istəyir. Elə ona görə, həmişə uduzmuş vəziyyətdə olurlar.**

**Hər günahına görə bəzi insanların boyunlarından iynə ucu boyda daş asılsa, alınları yerdən qalxmaz.**

**Başqa-başqa adamlarıq. Əvvəl də belə idik. Sadəcə əvvəllər bunu boynumuza almaq istəmirdik.**

***Rasif TAHİROV***

## FIFA qadınlar arasında futbolun inkişafına 500 milyon dollar ayıracaq



***FIFA qarşıdan gələn dörd ildə qadınlar arasında futbolun inkişafına 500 milyon dollar (449 milyon avro) ayıracaq.***

FIFA qadınlar arasında yarışları stimullaşdırmaq məqsədi ilə Milli Komandalar üçün Dünya Qadınlar Liqasının yaradılması, belə qadınlardan ibarət klublar arasında dünya çempionatının keçirilməsi və gənclər turnirlərinin inkişaf etdirilməsi təşəbbüsünü irəli sürəcək.

Bu barədə qərar 2020-ci ilin martında qəbul ediləcək.

FIFA qadın futbolçulara daha yüksək qonorarlar təklif etmək üçün qadınlar arasında dünya çempionatında müqavilələri yenidən nəzərdən keçirməyi də planlaşdırır.

*Nigar Cəfərli*

## Olimpiada idman vasitəsilə dünyada sülhü, qardaşlığı, dostluğu tərənnüm etməkdir



***Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Milli Olimpiya Komitələri Assosasiyasının (ANOC) Baş Assambleyasında iştirak edib.***

BOK-un rəsmi saytı xəbər verir ki, Qətərin paytaxtı Dohada keçirilən assambleyada çıxış edən T.Bax bildirib ki, dünyamızda sabitliyi qoruyub saxlamaq üçün böyük səy göstərmək lazım gəlir.

"Bizim missiyamız dünyada sülhə xidmət etməkdir. Bunun üçün biz həmrəylik nümayiş etdirməli, siyasi neytrallığı qorumalı, bir-birimizin hüquqlarına hörmət etməliyik. Mən sizi idmanın birliyi naminə həmrəy olmağa, bizi ayıran yox, birləşdirən ideyalar ətrafında birləşməyə çağırıram", - deyə BOK-un rəsmisi əlavə edib.

T.Bax 200-dən artıq ölkənin milli Olimpiya komitələrinə səslənərək beynəlxalq Olimpiya hərəkatında həmrəyliyin vacibliyini vurğulayıb. O, Olimpiya Oyunlarından biznes, kommersiya məqsədi ilə istifadə hallarına kəskin etirazını bildirib.

Deyib: "Olimpiya Oyunları birmənalı olaraq pul qazanmaq və gəlir artırmaq meydanı deyildir. Olimpiada idman vasitəsilə dünyada sülhü, qardaşlığı, dostluğu tərənnüm etmək, olimpizm dəyərlərini qiymətləndirməkdir".

BOK prezidenti məhz bu amillərin sayəsində hazırda qurumun tərkibində 206 milli Olimpiya komitəsinin, çoxlu sayda Olimpiya çempionu və mükafatçılarının olduğunu qeyd edib.

## Mini-futbol turnirində ilk yerlər uğrunda gərgin mübarizə gedib

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (ASCO) və ASCO-nun tərkibinə daxil olan strukturların aparat işçiləri arasında keçirilən mini-futbol turnirinə yekun vurulub.***

Sosial inkişaf və nəqliyyat şöbəsinin təşkilatçılığı ilə baş tutan turnirdə ASCO-nun bütün strukturları təmsil olunub.

İlk yerlər uğrunda gərgin mübarizə gedib. Finalda "ASCO Mühafizə" və "Bibiheybət" Gəmi Təmiri Zavodunun təmsilçiləri üz-üzə gəliblər. Həlledici görüşdə "ASCO Mühafizə"nin futbolçuları daha gözəl oyun nümayiş etdiriblər və meydançanı 8-7 hesablı qələbə ilə tərk ediblər.







Qalib komanda diplom və hədiyyələrlə mükafatlandırılıb.

Qeyd edək ki, ASCO-da əməkdaşlar arasında mütəmadi idman yarışları təşkil olunur. Məqsəd dənizçilərin asudə vaxtını səmərəli təşkil etmək, onların fiziki sağlamlığını möhkəmləndirmək, idmana maraqlarını daha da artırmaqdan ibarətdir.

## "Paris-2024"ün Təşkilat Komitəsi Yay Olimpiya və Paralimpiya Oyunlarının yeni loqotipini təqdim edib

***Beş ildən sonra Fransa paytaxtında keçiriləcək "Paris-2024"ün Təşkilat Komitəsi Yay Olimpiya və Paralimpiya Oyunlarının yeni loqotipini təqdim edib.***

Emblem Olimpiya məşəlini, medalı və Fransa Respublikasının rəmzlərindən biri olan qızılsaçlı gənc qadın Mariannanın siluetini əks etdirir. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) rəsmi saytında BOK-un Əlaqələndirmə Komissiyasının sədri Pyer-Olivye Bekers-Vyejanın sözlərindən sitat gətirilib: "Paris oyunlarının Təşkilat Komitəsini yeni emblemin təqdimatı münasibətilə təbrik edirəm. Şübhə etmirəm ki, onun innovasiyalı dizaynı bütün dünyada tez bir zamanda tanınacaq və 2024-cü ildə keçiriləcək Oyunların vizit kartı olacaq. Medalın, Olimpiya məşəlinin və Mariannanın siluetinin vəhdəti Olimpiya dəyərlərini, tarixi və fransız ruhunu təcəssüm etdirir ki, bu da Olimpiya Oyunlarına xüsusi rəng qatacaq".




Beləliklə, təşkilatçılar Parisin Olimpiya müraciətində ilkin olaraq müzakirə edilən Eyfel qülləsinin emblemindən imtina ediblər.

Yeni emblemdə artıq 1924-cü ildə dünyanın ən əsas idman yarışlarına ev sahibliyi etmiş Parisə bir daha ehtiram ifadə olunur. Müəlliflərin düşüncəsinə görə, onun dəqiq və yığcam cizgiləri təxminən yüz il əvvəl keçirilmiş Olimpiya Oyunlarında istifadə olunmuş ar-deko üslubuna əsasən hazırlanıb.

Yeri gəlmişkən, emblem ilk dəfə həm Olimpiya, həm də Paralimpiya Oyunları üçün eyni olacaq, kiçik fərq yalnız aşağıda təsvir edilmiş Olimpiya halqaları və Paralimpiya cizgisi olacaq.

Fransa paytaxtında Yay Olimpiya Oyunları 2024-cü il iyulun 26-dan avqustun 11-dək, Paralimpiya Oyunları isə avqustun 28-dən sentyabrın 8-dək keçiriləcək.

## Lev Yaşin adına mükafat yaxşıların yaxşısına veriləcək

***İngiltərənin "Liverpul" komandasının braziliyalı qapıçısı Alisson Beker, İspaniyanın "Atletiko" komandasının sloveniyalı qolkiperi Yan Oblak və Almaniyanın "Bavariya" komandasının heyətində çıxış edən almaniyalı Manuel Noyer Fransada çıxan "France Football" jurnalının versiyası üzrə ilin ən yaxşı qapıçısı kimi Lev Yaşin adına mükafata nominantlardır.***

TASS agentliyi xəbər verir ki, bu mükafata nominantlar arasında braziliyalı Ederson ("Mançester Siti"), sloveniyalı Samir Xandanoviç ("İnter"), ispaniyalı Kepa Arrisabalaqa ("Çelsi"), fransız Uqo Lyoris ("Tottenhem"), kamerunlu Andre Onana ("Ayaks"), polyak Voysex Şensnıy ("Yuventus") və alman Mark-Andre ter Ştegen ("Barselona") də var.




"France Football" jurnalının versiyası üzrə ilin ən yaxşı gənc futbolçusu üçün təsis edilmiş "Trofey Kopa" mükafatına namizədlər sırasına ingilis Ceydon Sanço ("Borussiya", Dortmund), alman Kay Havers ("Bayer"), nigeriyalı Samuel Çukvueze ("Vilyarreal"), hollandiyalı Matteys de Liqt ("Yuventus", keçən mövsümdə "Ayaks"ın heyətində çıxış edib), fransız Matteo Qenduzi ("Arsenal"), portuqaliyalı Joau Feliş ("Atletiko", keçən mövsümdə "Benfika"nın heyətində çıxış edib), Cənubi koreyalı Li Kan İn ("Valensiya"), italiyalı Moyze Kin ("Everton", keçən mövsümdə "Yuventus"un heyətində çıxış edib), ukraynalı Andrey Lunin ("Valyadolid", keçən mövsümdə "Leqanes"in heyətində də çıxış edib) və braziliyalı Vinisius Junior ("Real", Madrid) daxildir.

Keçən ilin ən yaxşı qadın futbolçusu adına amerikalılar – Meqan Rapino, Rouz Lavell və Tobin Hit, hollandiyalılar – Like Martens və Sari Van Venendal, fransalı Vendi Renar, braziliyalı Marta, norveçli Ada Xeqerberq, isveçlilər – Kosovare Asslani və Sofiya Yakobsson iddia edirlər.

Mükafatların təqdim edilməsi mərasimi dekabrın 2-də Parisdə keçiriləcək.

## Adi qəhvə uzunömürlülüyün təminatıdır

***"MedDaily" xəbər verir ki, əgər insan gündə iki fincan qəhvə içirsə, o, bununla ömrünü iki il uzada bilər. Mütəxəssislər daha əvvəl dərc edilmiş 40 tədqiqatın təhlilini apararaq bu qənaətə gəliblər. Həmin tədqiqatlar, bütövlükdə 3852651 insanı əhatə edir.***



Məlum olub ki, qəhvənin qəbulu yaşından, çəkisindən, spirtli içki və tütün qəbulundan, həmçinin qəhvənin tərkibindəki kofeinin miqdarından asılı olmayaraq, hər hansı səbəbdən baş verən ölüm riskini aşağı salır. Qəhvə xərçəng, ürək-damar və tənəffüs yolları xəstəliklərinin, diabetin inkişafını ləngidir və ölüm riskini azaldır. Qəhvə içməyin üstünlükləri damar və həzm sistemi xəstəliklərində xüsusilə özünü göstərir.

İsveçli mütəxəssislərin tədqiqatları göstərib ki, kofeinə həssas olan hüceyrələr qanda şəkərin miqdarına nəzarət etməyə imkan verir. Alimlər böyrəklərin hüceyrələrini yenidən proqramlaşdırmağa nail olublar. Beləliklə onlar kofeinin qəbulu nəticəsində insulin əmələ gətirən hüceyrələr əldə ediblər. Praktikada kofeinin tətbiq edilməsi diabet modeli olan gəmiricilərin qanında şəkərin miqdarına daha effektli nəzarəti həyata keçirməyə imkan yaradırdı.

## Payız allergiyaları

***Mövsüm dəyişməsi insan orqanizminə təsirsiz ötüşmür. Havalar soyuduqca rast gəlinən xəstəliklər sırasında mövsümi allergiyalar da çoxalır. İmmun sistemi zəifdirsə, onda müxtəlif xəstəliklərə tutulma ehtimalı da yüksəlir. Yuxarı tənəffüs yolları sistemi dəyişən havaya qarşı daha həssas olur və bu zaman allergik xəstəliklərdən əziyyət çəkənlərdə ciddi problemlər yaranır.***



Uşaq Bərpa Müalicə Mərkəzinin həkim-allerqoloqu Pərvanə Hüseynova AZƏRTAC-a deyib: "Allergenlər hər mövsümə uyğun olaraq müxtəlifdir. Orqanizmdə hər hansı reaksiyaya səbəb olan amillər allergenlər hesab olunur. Payız allergenlərinin əsas səbəblərindən biri də çiçəkləmə dövründə olan bitkilərin tozcuqları və kif göbələklərinin sporlarının çoxalmasıdır. Həmin allergenlər daha çox allergik rinit və bronxial astma xəstəliklərinə səbəb olur.

Kif göbələkləri əsasən qapalı şəraitdə inkişaf edir. Rütubəti çox sevdiklərindən evdə, xüsusilə hamam otağında onların çoxalması üçün münbit şərait olur. Otaq şəraitində becərilən dibçək gülləri də allergenlərə səbəb ola bilir".

Allerqoloq daha sonra əlavə edib: "Bitki tozcuqları və kif göbələklərinin sporları əsasən külək vasitəsilə yayılır. Hətta çox uzaq məsafədə bitən bitkinin tozcuğu da külək vasitəsilə yaşadığımız məkana gələ bilər. Ona görə də mövsümü allergiyadan qorunmaq üçün xüsusilə açıq havada olduğu müddətdə uşaqların ağzını tənzif-maskalarla bağlamaq lazımdır".

Mütəxəssislər bildirilər ki, çiyələk, fındıq, yumurta və balıq yeyilməsi də allergiyaya səbəb olan amillər sırasındadır.

## Oturaq həyat tərzi ürəyə gedən qanın həcmini azaldır



***Fiziki aktivliyi üstün tutan qadınlar oturaq həyat tərzi keçirənlərlə müqayisədə ürək-damar sistemi problemlərindən əhəmiyyətli dərəcədə çox müdafiə olunurlar.***

"The Daily Mail" nəşri xəbər verir ki, Kaliforniya Universitetinin alimləri müəyyən ediblər: oturaq iş rejimini cəmi bir saat qısaltmaqla siz ürək-damar xəstəlikləri riskini 10 faizdən çox, ürək xəstəliyini isə 25 faizdən artıq azalda bilərsiniz.

Alimlər bu nəticəyə 63-97 yaş arasında olan və insult və ya ürəktutması keçirməyən 5600 qadın üzərində apardıqları müşahidələrdən sonra gəliblər. Təhlillər göstərib ki, fiziki aktivliyin gündəlik hər əlavə saatı damarların və ürəyin xəstəlikləri riskini müvafiq olaraq 12 faiz və 26 faiz azaldır.

Hər gün 11 saat və daha artıq oturaq həyat tərzi keçirən qadınlar fiziki cəhətdən aktiv olan həmcinsləri ilə müqayisədə diabet və hipertoniya kimi problemlərdən daha çox əziyyət çəkirlər. Həm də uzun müddət fasiləsiz oturan qadınlarda ürək xəstəliyi riski iş yerində fasilə edən və gəzişənlərlə müqayisədə 52 faiz daha çoxdur.

Nəticə ondan ibarətdir ki, istənilən aktivlik müsbət effekt verir. Hətta 1-2 dəqiqəlik fiziki aktivlik də faydalıdır. Oturaq həyat tərzi ürəyə gedən qanın həcmini azaldır, həmçinin qan damarlarının daxili divarları – endoteliyə də zərər verir.

## Arterial təzyiqin ölçülmə qaydası

***Arterial təzyiqi ölçən tanometr aparatı hipertoniyanın aşkar edilməsinə kömək edir. Həmin aparatdan düzgün istifadə etməyin qaydası var.***



Hipertoniyadan əziyyət çəkənlərin çoxunun evində təzyiqi ölçən aparata rast gəlmək olar. Amma onun dəqiqliyi, elektron və mexaniki aparatlar arasındakı müqayisələr çoxlarını narahat edir. Göstəricilərin bir-birindən fərqli olması xəstəni və həkimi çaşdıra, dəqiq diaqnoz qoymaqda çətinlik yarada bilər.

Paytaxtdakı 22 nömrəli Birləşmiş Xəstəxananın həkim-kardioloqu Nüşabə Səfərova AZƏRTAC-a deyib: "Hazırda manjetli və üzərində əqrəbləri olan tanometrlərdən istifadə edilir. Klassik aparatların həssaslığı daha yüksəkdir və doğru rəqəmləri almaqda həkimə kömək edir. Lakin ən mühüm məsələlərdən biri də təzyiqin düzgün ölçülməsidir. Son vaxtlar geniş yayılmış elektron cihazlardan da istifadə olunur. Bəzən onun göstəricilərinin doğru olub-olmadığı ilə bağlı şübhələr yaranır, lakin kiçik rəqəm fərqlərinin olması təşviş yaratmamalıdır".

Mütəxəssislərin fikrincə, klassik tanometrlər daha dəqiq və etibarlıdır. Aparatdan düzgün istifadə edilməsi üçün bəzi qaydalara əməl etmək lazımdır. Məsələn, əl-qolun hərəkəti, manjetin bərkidilməsi təzyiqi ölçən zaman rəqəmə öz təsirini göstərir. Odur ki, aparatdan istifadə qaydalarına düzgün əməl olunmaldıır. İlk növbədə qolu bərk, hamar səthə qoymaq lazımdır. Manjet geyim üzərindən bağlanılmamalıdır. Təzyiqi iki dəfə ölçmək lazımdır və onların arasında 7 dəqiqə fasilə verilməlidir. Bu, əzələ və damarların əvvəlki vəziyyətinə qayıtması üçün tələb olunan vaxtdır.

Tanometr olmadığı şəraitdə də təzyiqi yoxlamaq mümkündür. Bunun üçün nəbzi ölçmək lazımdır və alınan göstərici ikiyə vurulur. Nəbz 60-dan aşağıdırsa, deməli, təzyiq düşüb, 90 və daha çoxdursa, yüksəlib. Əlbəttə, bu üsuldan yalnız istisna hallarda istifadə etmək olar.

## Saç tökülməsinin səbəbləri

***Saç tökülməsi həmişə cəmiyyətdə aktual mövzulardan biridir. Bəziləri onu normal proses kimi qəbul etsələr də, bəziləri isə narahatlıq hissi keçirərək həkimə üz tutur.***

Həkim-dermatoloq Solmaz Orucovanın dediyinə görə, saç tökülməsi bir neçə səbəbdən - həm daxili, həm xarici amillərdən yaranır. Xarici amillərə, yəni ekzogen amillərə xanımların istifadə etdiyi kimyəvi boyalar, daxilə qəbul edilən həblər, uzun müddət antibiotiklərdən istifadə edilməsi daxildir.

Daxili amillərə daxili orqanların xəstəlikləri, qaraciyər və böyrək problemləri, infeksiya xəstəlikləri, periferik qan dövranının pozğunluqları və digər səbəblər aid edilir. Yaşadığı mühiti dəyişmək, qapalı iş yerində işləmək və stress saç tökülməsini artıran səbəblər sırasındadır. Saç tökülməsi hər iki cinsdə təsadüf edilsə də, keçəlləşməyə daha çox kişilər arasında rast gəlinir, çünki hormon və genlər bu sahədə mühüm rol oynayır.

Həkim-dermatoloq deyib: "Saç tökülmələri içərisində ən geniş yayılanı androgen allopesiyalarıdır, buna kişi tipli saç tökülməsi deyilir. Lakin ona xanımlar arasında da təsadüf edilir. Kişilərin 80 faizi onunla üzləşsə də, xanımlarda keçəllik olmur, çünki xanımların saç kökü kişilərə nisbətən 2 millimetr daha dərində yerləşir".

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3706